RƏSMİ DÖVLƏT QƏZETİ





# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 241 (8264) ÇƏRŞƏNBƏ, 30 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Regionlar tərəqqi, yüksəliş yolundadır

## Prezident İlham Əliyev hər bir bölgənin mövcud iqtisadi potensialından daha səmərəli istifadə olunması ilə bağlı ciddi tapşırıq verdi

**“Vətəndaşlara xidmət etmək bizim borcumuzdur. Prezident kimi mənim əsas vəzifəm ölkə daxilində olan problemləri həll etməkdir. Ona görə də mən bölgələri gəzirəm, hər il bəlkə də 30-35 rayonda oluram. Elə rayonlar var ki, 10 dəfədən çox olmuşam. Amma 4-5 dəfədən az olduğum rayon yoxdur. Ona görə gəlirəm, vəziyyətlə tanış oluram, mövcud olan problemləri vətəndaşların dilindən eşitmək istəyirəm ki, o problemlər həll olunsun. Ona görə mənim işimin əsas hissəsini daxili məsələlər tutur və məhz buna görə Azərbaycan çox uğurla inkişaf edir”.**

Fəaliyyətini xalqa və dövlətə layiqli xidmət prinsipi üzərində quran Prezident İlham Əliyevin Qəbələ və Ağdaş rayonlarına səfəri, yeni sosial və iqtisadi obyektlərin açılışı zamanı söylədiyi fikirləri bir daha təsdiq etdi ki, dövlət başçısı hər zaman verdiyi tapşırıqların icrası ilə yerində maraqlanır, vətəndaşlarla birbaşa təmaslara üstünlük verir, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyir və tez bir zamanda həlli üçün tapşırıqlar verir.

Əlbəttə ki, dövlət başçısının bu fəaliyyəti xalqın Prezidentinə olan etimadını, inamını daha da artırır. Elə Prezidentə güc verən də vətəndaşın inamı, dəstəyidir. Cənab İlham Əliyevin söylədiyi kimi, xalqa güvənən dövlət başçısı bu dəstəkdən güc alır.

Regionların sosial-iqtisadi inkişafına dair dördüncü dövlət proqramının icrası uğurla davam etdirilir. Bu sənədin tərkibi, əsasən, yerlərdən gələn xahişlər nəticəsində formalaşıb. Dövlət başçısının bölgələrə çoxsaylı səfərləri və vətəndaşlarla söhbətləri bu sahədə çox gözəl bir təcrübə yaradıb. Çünki vətəndaşların təklifləri mütləq nəzərə alınır və bölgələrdə bir çox layihələr məhz insanların təklifləri əsasında reallaşır.

Dördüncü dövlət proqramında kənd təsərrüfatı və sənaye istehsalı xüsusi yer tutur. Çünki həyata keçirilən infrastruktur layihələrinin böyük hissəsi başa çatdığı üçün iqtisadiyyatın real sektorunun, kənd təsərrüfatının inkişafı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir.

Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması müddətinin 2021-ci il yanvarın 1-dək uzadılması bu sahəyə necə diqqət göstərildiyini bir daha təsdiqləyir.

Prezidentin Qəbələ və Ağdaş rayonlarına səfəri zamanı fəaliyyətə başlayan müəssisələr və açılan yeni obyektlər də deyilənləri bir daha təsdiqləyir. Dövlət başçısı bu səfəri zamanı Qəbələnin Vəndam qəsəbəsində yaradılmış dekorativ gülçülük istixanası ilə tanış oldu, rayonda 110/35/10 kilovoltluq “Qəbələ” elektrik yarımstansiyasının yenidənqurmadan sonra istismarı, şəhərin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi, “Azərxalça” ASC-nin Qəbələ filialının, həmçinin rayonun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yollarının açılışı mərasimlərinə qatıldı. Ağdaş rayonunda isə yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolunun açılışı, şəhərin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi, “Biyan Products” MMC-yə məxsus Biyan Sənaye Parkının açılışı, Telekommunikasiya Qovşağında “Şəbəkə” Xidmət Mərkəzinin istifadəyə verilməsi mərasimlərində iştirak etdi.

Beləliklə, dövlət başçısı Qəbələ və Ağdaşda 9 yeni obyektin açılışını edərək öz xeyir-duasını verdi. Əlbəttə ki, açılan hər bir yeni obyekt regionlarda iş yerlərinin çoxalmasını, əhalinin məşğulluğunun artmasını şərtləndirir. Bu səfər zamanı da Prezident regionların mövcud iqtisadi potensialından daha səmərəli istifadə olunması ilə bağlı göstərişlərini verdi.

Bütün bunlar təsdiq edir ki, cənab İlham Əliyevin vaxtilə irəli sürdüyü təşəbbüslər bu gün uğurlu nəticələr verir. Azərbaycanın qeyri-neft sektorundakı inkişafını şərtləndirən mühüm sənaye kompleksləri, fabrik və zavodların işə düşməsi ölkəmizə böyük dividendlər qazandırır. Qeyri-neft sənayesində 15 faizlik artım isə həqiqətən də rekord göstəricidir.

“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurlu icrası da göstərir ki, regionlarda ənənəvi sahələrin inkişafı ilə bağlı tapşırıqlara uyğun olaraq, zəruri işlər görülür. Dövlətin regionların inkişafı istiqamətində həyata keçirdiyi layihələr bölgələrin simasını büsbütün dəyişərək gözəlləşdirir.

İlkin hesablamalara görə, “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir.

Azərbaycan dövlətinin bu istiqamətdə həyata keçirdiyi işlər və xalqın hakimiyyətə inamının getdikcə artması beynəlxalq reytinq təşkilatlarının, Dünya Bankının, Dünya İqtisadi Forumunun hazırladıqları hesabatlarda da öz əksini tapır.

*Ardı 4-cü səh.*

# Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı xalqlarımızın ortaq milli-mənəvi dəyərlərindən və ənənələrindən güc alır



## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Türkiyə Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün qardaş Türkiyə dinamik və hərtərəfli inkişaf yolundadır. Əldə etdiyi nailiyyətlər onu dünyanın iqtisadi cəhətdən qüdrətli və ən qabaqcıl ölkələri sırasına çıxarmışdır. Türkiyə, həmçinin öz dövlətçilik mənafelərindən çıxış edərək dünyada və regionda cərəyan edən proseslərdə ədalətli və qətiyyətli mövqe nümayiş etdirir.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı xalqlarımızın ortaq milli-mənəvi dəyərlərindən və ənənələrindən güc alır. Əminəm ki, müttəfiqliyimiz, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız bundan sonra da xalqlarımızın rifahına, ölkələrimizin hərtərəfli inkişafına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm can-sağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 oktyabr 2019-cu il*



# Azərbaycan Qoşulmama Hərəkatının işinə töhfə verəcək

## İlham Əliyev beynəlxalq hüququn təməl prinsiplərini təşviq etmək əzmindədir

**Azərbaycan Respublikası 28 il əvvəl müstəqilliyini bərpa edəndən bəri bir sıra nüfuzlu beynəlxalq və regional təşkilatlarda üzv kimi fəal iştirak edərək həm milli maraqlarını irəli aparır, həm də bu platformalar çərçivəsində ayrı-ayrı ölkələrlə sıx əməkdaşlıq etməklə yeni-yeni dostlar qazanır.**

Böyük tarixlə müqayisədə qısa zaman kəsiyində gənc dövlətimiz beynəlxalq aləmdə etibarlı tərəfdaş imicinin sahibi olmuş və nəticə etibarilə dünya adlı ailədə nüfuzlu üzv kimi layiqli yer tutmuşdur. Azərbaycanın heç kimdən asılı olmayan müstəqil xarici siyasət yeritməsinin, ədalətə və beynəlxalq hüquqa əsaslanmasının nəticəsidir ki, dövlətimiz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə layiqli töhfə vermiş və beynəlxalq siyasi həyatın fəal iştirakçısı kimi prinsipial mövqe nümayiş etdirmişdir.

Cari ayın 25-26-sı ölkəmizin tarixində daha bir mühüm hadisə ilə yadda qaldı: Qoşulmama Hərəkatının XVIII Sammiti Bakıda keçirildi və Azərbaycan Respublikası beynəlxalq təşkilatın sədri səlahiyyətlərini qəbul etdi. Məlum olduğu kimi, bu təşkilat BMT-dən sonra ikinci böyük siyasi platformadır. 120 üzv-dövləti öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının fəaliyyətində 17 dövlət və 10 beynəlxalq təşkilat da müşahidəçi kimi iştirak edir. Yer kürəsi əhalisinin 51 faizi Qoşulmama Hərəkatının üzvü olan ölkələrdə yaşayır. Planetdə əkin sahələrinin 46 faizi, neft ehtiyatlarının 86 faizi üzv-ölkələrin payına düşür. Başqa sözlə, Qoşulmama Hərəkatı özünü dünyada yetərli siyasi çəkiyə malik olan qurum kimi göstərir.

Cəmi səkkiz il əvvəl Qoşulmama Hərəkatına qoşulmuş Azərbaycan indi üç il ona rəhbərlik etmək səlahiyyətlərini icra edəcək. Özü də ölkəmizin daxil olduğu Avropa qrupu 1992-ci ildən bəri ilk dəfə məhz Azərbaycanın timsalında bu beynəlxalq platformanın sədri olur. Bu da təsadüfi deyil. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi dünya birliyinin ölkəmizə göstərdiyi hörmət, inam və etimadın növbəti təzahürüdür.

Qarşıdakı üç il ərzində Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi həm səlahiyyətlərini icra edəcək, həm də beynəlxalq siyasi platformadan faydalanaraq dünya birliyinin üzləşdiyi problemlərin həlli naminə səylərini əsirgəməyəcək, bu istiqamətdə yeni-yeni təşəbbüslər irəli sürəcək.

Yeri gəlmişkən, Bakı sədrliyə başlayar-başlamaz ilk təşəbbüsünə imza atmışdır. Məlum olduğu kimi, gənclər siyasəti dövlətimizin yürütdüyü siyasətin prioritet istiqamətlərindən biridir. Azərbaycanda böyüməkdə olan nəslin milli-mənəvi dəyərlər, vətənpərvərlik ruhunda yetişdirilməsinə xüsusi əhəmiyyət verilir. Ona görə də Azərbaycan rəhbərliyi Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq Gənclər Sammiti keçirmək təşəbbüsü ilə çıxış etmişdir.

*Ardı 3-cü səh.*

## Neft Daşları - 70



# Geoloq

**Neft Daşlarında geoloqa həmişə ehtiyac var. Tanınmış kəşfiyyatçı geoloq, professor Ağaqurban Əliyev başçılıq etdiyi ekspedisiya ilə Xəzərin qoynundakı həmin xəzinəni tapdığı vaxtdan bəri burada neçə-neçə bacarıqlı geoloqlar nəsli yetişib, bir-birini əvəz edib.**

Neft Daşlarının salnaməsində Fuad Səmədov, Xoşbəxt Yusifzadə, Ənvər Məmmədov, Aslan Sultanov və onlarca digər geoloqun dəstxəti var. Bu gün əmək və hünər meydanı onların yetirmələrinin, ardıcıllarınındır.

“Neft Daşları” NQÇİ-nin 3 nömrəli neft və qazçıxarma sahəsinin geoloqu Adil Abdullayev deyir:

- “Neft Daşları”ndan sonra 1953-cü ildə geoloqlarımız “Palçıq Pilpiləsi”ni kəşf ediblər. 1963-cü ildən idarəmiz bu yatağın da istismarına başlayıb. Geoloqlar hər iki yatağın rasional işlənməsini, intensivləşmə və suvurma üsullarının tətbiqini həyata keçiriblər. Yeni perspektiv sahələrdə kəşfiyyat işləri aparıblar. Neft Daşlarının mezozoy qatının və perspektivli “Günəşli” yatağının layihə işlərini yerinə yetiriblər.

Geoloqun “Palçıq Pilpiləsi”ndən söz açması təsadüfi deyil. Bu yatağın istismarı ilə onun çalışdığı sahə məşğuldur.

“Palçıq Pilpiləsi” Çilov adasından Neft Daşlarına qədər uzunu 10, eni 2,5 kilometr olan ərazini əhatə edir. Yataq boyunca “səpələnmiş” özüllər mavi Xəzərin qoynunda bəzən sayrışan ulduzlara bənzəyirlər. 11 nöqtədə yerləşsələr də, ümumi sayları əslində 14-dür. Çünki üç yerdə qoşa özül quraşdırılıb.

*Ardı 5-ci səh.*

# Yığım da, emal da fasiləsiz davam edir

**Sentyabrın birinci ongünlüyündə havaların küləkli, yağmurlu keçməsi pambıq əkən fermerlərin, torpaq mülkiyyətçilərinin qanını bir az qaraltdı. Çoxları düşündü ki, hələ sentyabrın əvvəlləridir, sonrası gör necə olacaq, deyəsən, əzab-əziyyətlə yetişdirdikləri məhsulu son qozasınadək yığa bilməyəcəklər.**

Ancaq şükürlər olsun, ikinci ongünlükdən etibarən havalar düzəldi. Qız-gəlinlər tarlalara çıxıb erkən əkilmiş sahələrin nübar məhsulunu toplamağa başladılar. Maşınla yığılması nəzərdə tutulan yerlərdə kolların yarpağını tökmək üçün dərmanlama aparıldı. Sentyabrın 25-dən pambıqyığan maşınlar sahələrə çıxdı və yığım sürət götürdü. Az vaxt ərzində “ağ qızıl” tayaları sıralandı. Eyni zamanda məhsulun emalına başlanıldı.

*Ardı 5-ci səh.*



# Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlıq dinamik şəkildə inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini bildirən dövlət başçısı enerji sahəsində Böyük Britaniyanın Azərbaycanın əsas tərəfdaşlarından biri olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyri-neft sektorunda əməkdaşlığın inkişafı üçün də geniş imkanların olduğunu dedi. Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin genişlənməsində Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rolunu qeyd etdi.

Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin olduğunu deyən Baronessa Emma Nikolson iqtisadi, ticari, mədəni və humanitar sahələrdə əlaqələrimizin inkişafı üçün səylərini əsirgəmədiyini bildirdi. O, Azərbaycana səfəri çərçivəsində çoxsaylı görüşlər keçirdiyini, Muğam Mərkəzində olduğunu və bu mərkəzin onda böyük təəssürat yaratdığını dedi.

Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı, səhiyyə, elm, təhsil, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsi aparıldı.

## Ağdaş rayonunun Orta Ləki kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdaş rayonunun Orta Ləki kəndində 480 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2019-cu il*

## H.X.Əsədovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsilin inkişafında xidmətlərinə görə Heydər Xanış oğlu Əsədov “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2019-cu il*

## Ağdaş şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində Ağdaş rayonunda bir sıra sosialyönümlü infrastruktur layihələri həyata keçirilmiş, o cümlədən rayon Mərkəzi Xəstəxanası, Olimpiya İdman Kompleksi, Bayraq meydanı, Habil Əliyev adına 500 şagird yerlik yeni musiqi məktəbi inşa edilmiş, 39 ümumtəhsil müəssisəsində təmir-tikinti işləri aparılmışdır. Bundan başqa, şəhərin su təchizatı sistemi, 110/35/10 kV-luq 2X25 MVA gücündə “Ağdaş” yarımstansiyası yenidən qurulmuş, Biyan Sənaye Parkının biyan tədarükü və emalı, bitki ekstraktı və sirop istehsalı zavodları və digər iri istehsal və emal müəssisələri yaradılmış, 13 mindən çox yeni iş yeri açılmış, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Ağdaş şəhərində fin tipli, istismara yararsız evlərdə və XIX əsrə aid yerli əhəmiyyətli tarixi abidə olan “Qarabəy karvansarayı”nda ötən əsrin ortalarında məskunlaşmış sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Ağdaş şəhərində qəzalı vəziyyətdə olan evlərdə məskunlaşmış sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Ağdaş Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2019-cu il*

## Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyi münasibətilə və Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Xalq artisti”**
Abdullayev Kyazım Ənvər oğlu
Nurzadə Əli Qayıb oğlu

**“Əməkdar artist”**
Abdullayev Mətləb Fətəli oğlu
Babayeva Əminə Ağahüseyn qızı
Bəxtiyarov Rəşad Bəhram oğlu
Qarayev Elnar Cəfər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2019-cu il*

## Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyi münasibətilə və Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Şöhrət” ordeni ilə**
Dadaşov Rafael Məlik oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Məlik Ramiz Ağarza oğlu

**“Tərəqqi” medalı ilə**
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Atakişiyeva Mətanət Ağazair qızı
Əliyeva Münəvvər Sabir qızı
Həsənov Rafael Vaqif oğlu
Hüseynov Fizuli İsmət oğlu
Quliyev Elxan Əli Bala oğlu
Məmmədov Elnur Mehrəli oğlu
Məmmədov Hacıbaba İsmayıl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2019-cu il*

# Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi növbəti böyük qələbəmizdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul edib.

AZƏRTAC xəbər verir ki, bu qələbənin əhəmiyyətini vurğulayan Prezident **İlham ƏLİYEV** dedi:

- Bir neçə gün bundan əvvəl Vaşinqtonda keçirilmiş Beynəlxalq Astronavtika Konqresində növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu, çox böyük hadisədir, bizim böyük qələbəmizdir və bu münasibətlə sizi təbrik etmək istəyirəm. Bilirəm ki, “Azərkosmos” və digər dövlət qurumları bu konqresin Azərbaycanda keçirilməsi üçün böyük səylər göstərmişlər.

Bu konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, konqresin işində Amerikanın vitse-prezidenti cənab Pens iştirak etmişdir. Növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir. Yadımdadır, bu ilin iyul ayında Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Azərbaycanda səfərdə idi. Mən onu qəbul etmişdim və ona öz niyyətimizi bildirmişdim ki, biz çox istəyirik növbəti konqres Bakıda keçirilsin. Çünki biz hesab edirik ki, bu, ədalətli olar. Çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar doğrudan da çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir.

Bu qələbə bir daha ona görə önəmlidir ki, bizim çox güclü rəqiblərimiz var idi. Dörd şəhər konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərləri. Yəni həm təcrübə, həm də əhali baxımından Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz, əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var. Təkcə bu ayın ərzində həm Türk Şurasına, eyni zamanda, dünyanın BMT-dən sonra ən böyük təşkilatına - Qoşulmama Hərəkatına sədrliyimiz bunun əyani sübutudur. Azərbaycanla birlikdə 120 ölkə yekdil qərarla Azərbaycanı Qoşulmama Hərəkatına sədr seçibdir və bu, doğrudan da böyük tarixi nailiyyətdir. Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi növbəti böyük qələbəmizdir. Mən bu hadisəni çox önəmli siyasi qələbə kimi qəbul edirəm.

İctimaiyyətin diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. O da odur ki, 1973-cü ildə Sovet İttifaqı dönəmində Beynəlxalq Astronavtika Konqresi Sovet İttifaqında keçirilmişdir. Cəmi bir dəfə, o da Bakı şəhərində. O vaxt Ulu Öndər Heydər Əliyev Azərbaycanın rəhbəri kimi böyük səylər göstərmişdir ki, Sovet İttifaqında bu konqres məhz Bakıda keçirilsin. Hesab edirəm ki, 2022-ci ildə - təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. O vaxt biz müstəqil deyildik, ancaq Sovet İttifaqında məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilmişdir. Bu gün isə biz müstəqilik və müstəqil Azərbaycan bu böyük tədbirə evsahibliyi edəcəkdir.

Növbəti 2-3 il ərzində konqresin keçirilməsi üçün böyük təşkilati işlər aparılmalıdır. Biz təqribən 6-7 min xarici qonaq gözləyirik. Bu qonaqlar dünyanın texnoloji gündəliyini müəyyən edən qurumların rəhbərləridir, nümayəndələridir. Ona görə vaxt gələndə konqresin yüksək səviyyədə keçirilməsi üçün təşkilat komitəsi yaradılacaq və əlbəttə ki, əsas hazırlıq işlərini “Azərkosmos” öz üzərinə götürəcəkdir. Beləliklə, biz növbəti böyük uğura imza atdıq. İndi konqres zamanı aparılan müzakirələr və gedən proseslər haqqında məlumat verin.

❖❖❖

“Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin sədri **Rəşad NƏBİYEV** dedi:

- Cənab Prezident, verdiyiniz yüksək dəyərə və qiymətə görə çox sağ olun. Əvvəlcə bir məqamı qeyd etmək istərdim ki, konqresin Bakıda keçirilməsi ilə bağlı verilmiş qərar təbii ki, ölkəmizdə mövcud olan siyasi və iqtisadi sabitliklə bağlıdır. Nəyə görə? Çünki ölkələrin götürdüyü öhdəliklərin 3 ildən sonra yerinə yetirilməsi əsas şərtlərdən biri idi. Digər tərəfdən, ölkəmizdə yaradılmış infrastrukturun xüsusi rolu, önəmi olmuşdur. Bizdə beynəlxalq tədbirlərin keçirilməsi üçün kifayət qədər yaxşı infrastruktur vardır. Digər bir məqam isə, cənab Prezident, ölkəmizdə bu səpkidə tədbirlərin keçirilməsi ənənəsinin mövcudluğudur. Bunların hamısından da ən vacibi, cənab Prezident, Sizin şəxsən Azərbaycan insanına və onun inkişafına verdiyiniz önəmdir. Çünki kosmik sənayenin özünü uğurlu edən əsas meyarlardan biri insan amilidir. Son illərdə Azərbaycanda təhsilə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə kifayət qədər bacarıqlı, texniki bilikləri və vərdişləri olan yeni bir nəsil formalaşmaqdadır. Ən önəmli məsələ isə odur ki, onlar öz vətənini, xalqını sevən bir nəsildir.

Cənab Prezident, seçki prosesinə gəldikdə isə bir məqamı vurğulamaq istərdim ki, Sizin tapşırığınızla “Azərkosmos”la yanaşı, ölkəmizdə aidiyyəti qurumların hər biri koordinasiyalı şəkildə öz səylərini bir araya qoyaraq bu nəticəni əldə edə bilmişlər.

Altmış səkkiz ölkədən 398 üzvü birləşdirən bu federasiya dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Bu tədbir istər iştirakçıların say baxımına, istərsə də burada müzakirə olunan məsələlərin vacibliyinə görə ən mötəbər tədbirlərdən biridir.

Rəqiblərimiz Siz vurğuladığınız kimi, Sinqapur, Rio-de-Janeyro və Dehli idi. Əgər biz Hindistana baxmış olsaq, onlar dünyanın ən aparıcı kosmik ölkələrindəın biridir. Braziliyanın timsalında astronavtikaya baxmış olsaq, onlar dünyada sərnişin təyyarələri istehsal edən üç ən öndə gedən ölkədən biridir. Sinqapur isə istər coğrafi mövqeyinə, istərsə də bu səpkidə tədbirlərin keçirilməsinə görə dünyanın ən lider ölkələrindən biridir.

Cənab Prezident, bu tədbirə maraq oyadan digər məqamlardan biri də ondan ibarətdir ki, son illərdə bu sahəyə özəl sektorun marağı durmadan artmaqdadır. “Amazon” şirkətinin rəhbəri Ceff Bezos da məlum olduğu kimi, burada əsas çıxışçılardan biri idi. Ötən illərdə əsas çıxışçılardan biri “SpaceX” şirkətinin yaradıcısı Elon Mask olub. Yəni bu, onu göstərir ki, kosmik sənaye yalnız dövlətlərin marağında deyil, artıq özünün cəzbediciliyi baxımından özəl sektorun da marağını cəlb edir.

Uğur qazanmağımızın ən əsas səbəblərindən biri ondan ibarət olmuşdur ki, 1973-cü ildə Sovet İttifaqında ilk və yeganə konqres Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanda, Bakı şəhərində keçirilmişdir. Bu tədbirdən təxminən 6 ay sonra Azərbaycanın kosmik sənayesinin əsasları qoyulmuşdur. “Kaspi” Tədqiqat Mərkəzi yaradılmaqla Azərbaycan mütəxəssisləri kosmik sahədə tədqiqatlara, kosmik cihazlar hazırlamağa başlamış, sonradan o cihazlardan “Salyut” və “Soyuz” kimi peyklərdə istifadə olunmuşdur.

❖❖❖

Prezident **İlham ƏLİYEV** dedi:

- Bəli, bu, çox böyük hadisədir. Bir daha demək istəyirəm ki, biz bu hüququ çox gərgin mübarizədə əldə etmişik. Bu, bizim ölkəmizin növbəti böyük qələbəsidir. Əminəm ki, konqres Azərbaycanda ən yüksək səviyyədə keçiriləcək, minlərlə xarici qonaq ölkəmizə səfər edəcək, o qonaqlar ki, onlar bu gün dünyanın texnoloji gündəliyini müəyyən edir. Əlbəttə ki, bu, həm bizim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir və bununla bərabər böyük fürsətdir. Yəni biz bu konqresin Azərbaycanda keçirilməsindən çox böyük dividendlər əldə etməliyik. O mənada ki, beynəlxalq əməkdaşlıq daha da geniş vüsət almalıdır.

Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Əlbəttə ki, müasir texnologiyaların inkişafı bizim gündəliyimizin əsas məsələlərindən biridir. Bu gün dünyanın inkişafı müasir texnologiyaların imkanından asılıdır. O ölkələr ki bu texnologiyaları icad edir, yaxud da ki onları tətbiq edir, o ölkələr daim uğur qazanacaqlar. XXI əsr texnoloji mübarizə əsridir və bizim kadr potensialımız, texniki imkanlarımız buna hazır olmalıdır. Məhz buna görə Azərbaycan yüksək texnologiyaları inkişaf etdirən ölkələrdən biridir. Bundan sonra da kadr hazırlığı, texnoloji inkişaf, müasir texnologiyaların Azərbaycana gətirilməsi istiqamətində əlavə addımlar atılacaq. Siz də qeyd etdiyiniz kimi, hazırda artıq böyük biznes də bu sahəyə çox böyük maraq göstərir. Əslində, inkişaf etmiş ölkələrdə müasir texnologiyalar, o cümlədən astronavtika sahəsində əldə edilmiş uğurlar böyük biznesin dəstəyi ilə baş verir. Biz elə etməliyik ki, dünyanın aparıcı biznes strukturlarından hansıların rəhbərləri Azərbaycanda keçiriləcək konqresdə iştirak edəcək, onlar bu tədbirə qədər ölkəmiz haqqında geniş məlumata malik olsunlar. Ona görə növbəti 2-3 il ərzində sizin və digər aidiyyəti qurumların rəhbərləri gərək bu şirkətlərlə sıx təmaslar qursunlar. Konqresə hazırlıq dövrü elə olmalıdır ki, buraya gələcək qonaqlar artıq bizimlə müəyyən müxtəlif sahələrdə əməkdaşlıq etməyə hazır olsunlar. Ona görə konqresin keçirilməsi çox önəmli hadisədir. Ancaq konqresdən sonrakı dövr də az əhəmiyyət daşımır. Çünki konqresdən sonrakı dövr Azərbaycanda yeni texnoloji inkişaf dövrü olmalıdır. Əlbəttə ki, genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində son illər ərzində əldə edilmiş təcrübə bizə imkan verəcək ki, konqres ən yüksək səviyyədə keçirilsin.

## Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı əməkdaşlarının “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyi münasibətilə və Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin:

Cəfərova Bəsti Əli qızı
Əsədova Məleykə Əlifağa qızı
Mustafayeva Laləzar Bəşir qızı
Novruz Ramiz Qəvvam oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2019-cu il*

# Bakıda Türkiyənin milli bayramı münasibətilə rəsmi qəbul təşkil olunub

Türkiyənin Azərbaycandakı səfirliyi Cümhuriyyətin elan edilməsinin 96-cı ildönümü münasibətilə oktyabrın 29-da rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Prezident Rəcəb Tayyib Ərdoğanın təbrik məktubunu oxuyub. Məktubda deyilir ki, bir millət və dövlət olaraq türk xalqı son dövrlərdə əhəmiyyətli anlar yaşayır. Türkiyə Cümhuriyyəti terrorla uğurla mübarizə aparır. Türkiyə bu məsuliyyətli işin öhdəsindən gələcək potensiala malikdir. Ölkə 2023-cü ildə hədəfinə çatacaq və bununla da gələcək nəsillərə daha güclü Türkiyə miras qoyacaq.





Milli Məclisin Sədri Oqtay Əsədov çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə xalqına səmimi təbriklərini çatdırıb. Bildirib ki, Türkiyə ötən 96 ildə böyük inkişaf yolu keçib. Bu gün Türkiyə dünyada güclü dövlət kimi tanınır. Türkiyə ilə Azərbaycan arasında sıx qardaşlıq əlaqələri mövcuddur. Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin möhkəmlənməsində parlamentlərarası dostluq qruplarının böyük rolu var. Qardaş dövlətlərimiz beynəlxalq təşkilatlarda da sıx əməkdaşlıq edirlər və bir qayda olaraq mövqelərimiz üst-üstə düşür. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Türkiyə ölkəmizin haqlı mövqeyini birmənalı şəkildə dəstəkləyir. İki ölkənin dövlət başçılarının qardaş münasibətləri dövlətlərimiz və xalqlarımız arasındakı əlaqələrə öz müsbət təsirini göstərir.

Bu günə qədər ölkələrimiz arasında 240-dan çox ikitərəfli sənədin imzalandığını, 27 sənədin baxılma mərhələsində olduğunu bildirən O.Əsədov deyib: "Ölkələrimiz arasında ticari-iqtisadi əlaqələr inkişaf edir. Ötən il ərzində Azərbaycan və Türkiyə arasında ticarət əlaqələri 3,4 milyard dollardan çox olub. Ancaq bu ilin 9 ayında ticarət əlaqələri artıq 3 milyard 300 milyon dolları ötüb. Azərbaycanın və Türkiyənin birgə səyləri ilə həm bölgə, həm də dünya üçün önəmli beynəlxalq layihələr həyata keçirilib. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və digər layihələr xalqlarımızın firavan gələcəyinin təmin edilməsinə yönəlib. İndiyə qədər Türkiyə şirkətləri Azərbaycana 12,2 milyard dollar, Azərbaycan isə Türkiyə iqtisadiyyatına 15,1 milyard dollar investisiya qoyub. Ötən il Türkiyədə istifadəyə verilən "Star" neft emalı zavodu qardaş ölkələr arasında iş birliyinin yeni böyük uğuru olub".

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Akademik Milli Dram Teatrına dövlət statusu verilməsinin 100 illiyi təntənə ilə qeyd edilib





Oktyabrın 29-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına dövlət statusu verilməsinin 100 illiyi münasibətilə təntənəli tədbir keçirilib. Tədbirdə dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri, mədəniyyət xadimləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaqlar teatrın foyesində sənət ocağının 100 illiyinə həsr edilmiş fotosərgi ilə tanış olub və görkəmli aktyorlarımızın tarixi rolları canlandırarkən istifadə etdikləri geyimlərə baxıblar.

Təntənəli yubiley gecəsi Mədəniyyət Nazirliyinin, Azərbaycan Teatr Xadimləri İttifaqının və Akademik Milli Dram Teatrının təşkilatçılığı, Azərbaycan Dövlət Teatr Muzeyinin dəstəyi ilə reallaşıb.

Qonaqları salamlayan Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti, professor Azər Paşa Nemətov teatrın tarixinə nəzər salıb, görülən işlərdən və əldə olunan uğurlardan söz açıb.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illiyinin keçirilməsinin qürurverici hal olduğunu vurğulayan Azər Paşa Nemətov bildirib ki, 1919-cu ildə kiçik dəstələrdən ibarət teatr truppaları birləşdirilərək ilk dövlət teatrı yaradılıb.

Teatrın yarandığı gündən çox böyük və keşməkeşli yol keçdiyini söyləyən Azər Paşa Nemətov deyib ki, sənət ocağının səhnəsində ilk olaraq "Azər və Baycan" adlı tamaşa nümayiş olunub.

Azərbaycan tarixində yaşananların teatrdan da yan keçmədiyini söyləyərək 1937-ci illərin qanlı repressiyalarına məruz qalanların sırasında bu sənət ocağının da aktyorlarının olduğunu vurğulayıb. O, İkinci Dünya müharibəsi zamanı teatrın aktyorlarının şücaətini də qeyd edib.

Teatrın bugünkü uğurlarında görkəmli rejissorların, ədiblərin böyük zəhmətinin olduğunu qeyd edən Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru deyib: "1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra teatra çox böyük dəstək göstərib. O, hər dəfə bizim premyeralara gələr, tamaşalardan sonra səhnə arxasında aktyorlarla görüşər, hamısı ilə bir-bir maraqlanardı. Onun qayğısı nəticəsində aktyorlarımız mükafat və fəxri adlarla təltif edilib, evlə təmin olunublar. Biz sevinirik ki, bu gün bu yol Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısı heç zaman teatra biganə yanaşmayıb. Çox sevinirəm ki, Prezident İlham Əliyev iyulun 24-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Bu, bir daha göstərir ki, dövlətimizin başçısı teatrı unutmur, teatrı yaşadır".

Gecədə "Ulu Öndər Heydər Əliyev və teatr" və "Prezident İlham Əliyev və teatr" mövzularında videoçarxlar nümayiş etdirilib.

Teatrın kollektivini təbrik edən Mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycan teatr sənətinin qədim və zəngin tarixi yol keçdiyini, ötən 147 illik zaman kəsiyində cəmiyyətin mənəviyyatının mənbəyi rolunu oynadığını bildirib.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Akademik Milli Dram Teatrının 1919-cu il oktyabrın 24-də dövlət statusu aldığını vurğulayan nazir deyib ki, bununla da Azərbaycan teatrının yeni tarixi başlayır. Nə gözəldir ki, müstəqil Azərbaycan bu tarixi yaşadır və gələcəyə doğru aparır.

Ə.Qarayev bildirib ki, uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafında son illərdə yeni mərhələ başlayıb. Bu inkişaf özünü ilk növbədə teatrların maddi-texniki bazasının müasir dünya standartlarına uyğun möhkəmləndirilməsində, kollektivlərin yaradıcılıq axtarışlarının bəhrəsi olaraq yeni maraqlı tamaşaların hazırlanmasında, nüfuzlu Qərb, o cümlədən Avropa teatrları ilə təcrübə mübadiləsinin genişləndirilməsində və s. göstərir.

Azərbaycan teatrının 10 illik inkişaf perspektivlərini müəyyənləşdirən "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının bu il yekunlaşdığını diqqətə çatdıran nazir teatr xadimləri ilə birgə növbəti illərin proqramını hazırladıqlarını bildirib.

Nazir Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın diqqəti nəticəsində teatrlarımızın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

Ə.Qarayev bu gün Zəngilanın işğalından 26 il ötdüyünü vurğulayaraq qeyd edib ki, Azərbaycan mədəniyyətinə daim təcavüz olunub. O deyib: "Bu təcavüzə layiqli cavab isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin keçirilməsidir. Prezident İlham Əliyevin səyləri nəticəsində torpaqlarımız geri qayıdacaq və bu gün məcburi qaçqın taleyi yaşayan teatrlarımız geri dönərək fəaliyyətlərini orada davam etdirəcəkdir".

O, sonra Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyi münasibətilə teatr əməkdaşlarının təltif edilməsi haqqında sərəncamlarını oxuyub.

Gecədə teatrın sənət yolu, burada fəaliyyət göstərən dramaturqlar, rejissorlar, rəssamlar, bəstəkarlar və korifey aktyorlar haqqında videoçarxlar nümayiş olunub.

Dünya teatr xadimləri və rejissorlarından - Gürcüstan Teatr Xadimləri Cəmiyyətinin sədri Georgi Qeqeçkori və Lado Mesxişvili adına Kutaisi Dövlət Peşəkar Dram Teatrının bədii rəhbəri Konstantin Abaşidze, Beynəlxalq Çexov Teatr Festivalının baş direktoru, Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının sədri Valeri Şadvin, Şota Rustaveli adına Gürcüstan Dövlət Akademik Teatrının bədii rəhbəri, SSRİ Xalq artisti Robert Sturua və başqaları çıxışlarında teatrın kollektivini təbrik ediblər.

Gecədə Bolqarıstan Milli Teatrının direktoru Marius Donkinin, Rusiya Federasiyası Teatr Xadimləri İttifaqının sədri Aleksandr Kalyaginin, Aleksandrinski Teatrının bədii rəhbəri Valeri Fokinin, Moskva Satira Teatrının bədii rəhbəri Aleksandr Şirvintin, Sankt-Peterburq Malıy Dram Teatrının bədii rəhbəri və direktoru Lev Dodinin təbrikləri səsləndirilib.

Mərasimdə, eyni zamanda, teatrın 100 illik yubileyinə həsr olunan "Akademik Milli Dram Teatrı - 100" kitab-albomu təqdim edilib.

Gecə musiqili proqramla davam edib.

# Azərbaycan Qoşulmama Hərəkatının işinə töhfə verəcək

## İlham Əliyev beynəlxalq hüququn təməl prinsiplərini təşviq etmək əzmindədir



*Əvvəli 1-ci səh.*

Hərəkatın XVIII sammiti ərəfəsində təşkil olunmuş Gənclər Sammitində 40 ölkədən Bakıya gəlmiş gənclər iştirak etmişlər.

Qoşulmama Hərəkatı fəaliyyətində Bandunq prinsiplərini rəhbər tutur. Bu prinsiplər hələ 1955-ci ildə, Hərəkat yaranmamışdan əvvəl İndoneziyanın Bandunq şəhərində keçirilmiş beynəlxalq konfransda elan edilmişdir. Beynəlxalq hüququn sülh, təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair əsas prinsiplərinə uyğun olan Bandunq prinsipləri dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi, eləcə də ədalət və beynəlxalq öhdəliklərə hörmət kimi prinsipləri ehtiva edir. Hərəkatın üzvü olan hər bir dövlət məhz bu prinsiplərə sadiq qalacağını bəyan etməlidir. Bandunq prinsipləri Azərbaycanın yeritdiyi xarici siyasətin təməl prinsipləri ilə üst-üstə düşür.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün əlindən gələni edəcək. Bakı daim vurğulayacaq ki, dövlətlərin sərhədlərini güc yolu ilə dəyişdirmək cəhdləri, güc tətbiq etməklə ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə hər hansı müdaxilə yolverilməzdir.

Məlum olduğu kimi, Qoşulmama Hərəkatı üzvlərinin mütləq əksəriyyəti inkişaf etməkdə olan ölkələrdir. Müasir dünyanın üzləşdiyi problemləri əsasən bu ölkələr yaşayır. Silahlı münaqişələr, yoxsulluq, beynəlxalq münasibətlərdə ədalətsizlik, qeyri-bərabərlik, zorakılıq baş alıb gedir. Bu məsələlərin tənzimlənməsi naminə Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı digər beynəlxalq təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsinə çalışacaq. Bu mənada keçən ay Azərbaycanın "77-lər qrupu"na qoşulması sosial-iqtisadi sahədə beynəlxalq səyləri artırmağa imkan verəcək. Üzv dövlətlərin maraqlarının BMT çərçivəsində birgə səylərlə müdafiə olunması da xüsusi əhəmiyyət kəsb edəcək.

Eyni zamanda Azərbaycan ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada-ölkələrin üzləşdiyi təhdidlərə xüsusən diqqət yetirəcək. Dövlət başçısı nəzərə çatdırmışdır ki, Azərbaycan 2005-ci ildən etibarən 90-dan çox ölkəyə humanitar və texniki yardım göstərmişdir. Azərbaycan müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir. Bu istiqamətdə iş gələcəkdə də davam edəcək.

Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatı beynəlxalq hüququn təməl prinsiplərini kobudcasına pozan dövlətlərin əməllərini ifşa etmək, onları qınaq obyektinə çevirmək üçün mühüm beynəlxalq müstəvidir. Bu baxımdan üzv dövlətlərin təcavüzkar Ermənistana münasibəti təqdirəlayiqdir. Azərbaycan Qoşulmama Hərəkatına qoşulandan sonra qurumun üzvləri Dağlıq Qarabağ münaqişəsi barədə daha müfəssəl məlumat əldə etmişlər. 2012-ci ildən bəri Hərəkatın nazirlər səviyyəsində görüşləri və sammitləri zamanı qəbul edilmiş bütün yekun sənədlərinə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bənd daxil edilmişdir. Həmin sənədlərdə münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinə dəstək ifadə olunmuşdur. Başqa sözlə, Qoşulmama Hərəkatının məsələyə münasibətdə mövqeyi birmənalıdır və Ermənistan bundan sonra da üzv dövlətlərin qınağı ilə üzləşəcək.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# *Rəşid MEREDOV*: "Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü beynəlxalq əməkdaşlığa mühüm töhfə oldu"

"Azərbaycan paytaxtında keçirilmiş Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü bu hərəkatın müasir dünyada rolunun artırılması istiqamətində əməkdaşlığa mühüm töhfə oldu". AZƏRTAC xəbər verir ki, bu fikri Türkmənistan Nazirlər Kabinetinin müavini, Xarici İşlər naziri Rəşid Meredov Aşqabadda xarici ölkələrin səfirləri ilə birlikdə keçirdiyi mətbuat konfransında səsləndirib.

R.Meredov qeyd edib ki, Bakıda keçirilmiş Zirvə görüşündə dünyada reallıqların nəzərə alınması və beynəlxalq əməkdaşlığın uzunmüddətli inkişafı perspektivləri fonunda faydalı müzakirələr aparılıb. Onun sözlərinə görə, Qoşulmama Hərəkatına üzv olan 120 ölkədə planetimizin əhalisinin 55 faizi yaşayır və bu baxımdan "soyuq müharibə"dən sonra Hərəkatın qarşısında duran vəzifələrin daha da dəqiq müəyyən olunması vacib idi. Türkmənistan rəsmisi deyib: "BMT Nizamnaməsində təsbit olunmuş fundamental prinsiplər, o cümlədən insan haqları, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi kimi vacib məsələlər ətrafında aparılan müzakirələr beynəlxalq əməkdaşlığa mühüm töhfə oldu və Türkmənistan müstəqilliyinin ilk illərindən bəri neytral ölkə kimi bu məqsəd və hədəflərə sadiq olub".

Türkmənistanlı nazir əlavə edib ki, Bakı Zirvə Görüşündə çıxış edən Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov bir sıra qlobal problemlərin həlli istiqamətində ciddi təşəbbüslər irəli sürüb. Onun sözlərinə görə, Türkmənistanın dövlət başçısı dayanıqlı inkişafın əsas aspektləri və dövlətlərin dinc yanaşı yaşaması, həmçinin terrorizmlə mübarizə, qaçqın problemi, ərzaq təhlükəsizliyi, ətraf mühitin mühafizəsi kimi mühüm məsələləri önə çıxarıb.

R.Meredov daha sonra Prezident Qurbanqulu Berdiməhəmmədovun Zirvə görüşündə çıxışından sitat gətirib: "Biz inanırıq ki, dövlətlərimiz vahid mövqedən çıxış edərək inkişaf etməkdə olan ölkələrin hüquq və maraqlarının müdafiəsi, beynəlxalq iqtisadi münasibətlərdə ədalətin və bərabərliyin təmin edilməsi, qlobal ticarət sahəsində ayrı-seçkiliyə yol verilməməsi, insanların və ölkələrin iqtisadi suverenliyinə hörmət edilməsi üzrə ciddi qarşılıqlı fəaliyyət göstərəcəklər".

Qoşulmama Hərəkatının ilk Zirvə Görüşü 1961-ci ildə Belqradda 29 ölkənin iştirakı ilə keçirilib. Hərəkatın əsas məqsədi xarici siyasətdə hərbi və siyasi bloklara qoşulmamaq, dinc yanaşı yaşamaq prinsiplərinə əməl edərək müstəqillik və bərabərliyə sadiq qalmaqdır.

# Parisdə Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

UNESKO-nun Parisdə yerləşən baş qərargahında Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimovla təşkilatın Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada al-Naşifin görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azad Rəhimov Azərbaycanda gənclər və idman sahələrində aparılan islahatlar, əldə olunan nailiyyətlər, eləcə də uğurla təşkil edilən beynəlxalq idman tədbirləri haqqında məlumat verib, ölkəmizin bu sahələrdəki öhdəliklərindən söz açıb.

Görüşdə Azərbaycan-UNESKO əməkdaşlığına toxunulub və əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Tərəflər Konvensiyasının yeddinci sessiyasının oktyabrın 30-da işə başlayacaq iclasının gündəliyində duran məsələlər və konvensiyanın həyata keçirilməsinə qarşı təhdidlər müzakirə olunub. Həmçinin ölkəmizin Tərəflər Konvensiyası (COP) çərçivəsində fəaliyyəti və həyata keçirilən tədbirlər diqqət mərkəzində olub.

Sonda Azərbaycanda həyata keçirilən gənclər siyasəti və bu sahədə qəbul olunmuş strateji sənədlərə uyğun əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb.



# Regionlar tərəqqi, yüksəliş yolundadır

## Prezident İlham Əliyev hər bir bölgənin mövcud iqtisadi potensialından daha səmərəli istifadə olunması ilə bağlı ciddi tapşırıq verdi

Əvvəli 1-ci səh.

Prezident son səfəri zamanı da bu məsələyə toxunaraq qeyd etdi ki, əldə edilən uğurların beynəlxalq təşkilatlar tərəfindən dünyaya çatdırılması həqiqətən də Azərbaycan adına şərəfdir: "Dünya Bankının, Davos Ümumdünya Forumunun hesabatlarında göstərilir ki, elektrik enerjisinə əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Baxın görün dünyada nə qədər inkişaf etmiş ölkələr var. Onların arasında, bütün dünya ölkələri arasında biz ikinci yerdəyik. Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu, nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqeyimizi müdafiə edək".

Ümumiyyətlə, dövlətlərin demokratiklik əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqdan mandat almış hakimiyyət fəaliyyəti ilə daim ictimai etimadı doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməyə çalışır.

Prezident İlham Əliyevin böyük sosial-iqtisadi islahatlarının nəticəsi də göz önündədir. Həyata keçirilən iqtisadi layihələrdən əldə edilən dividendlər sayəsində bir ildə iki dəfə maaşlar, pensiyalar, təqaüdlər artırılıb. Sosial-iqtisadi sahədə həyata keçirilən layihələr ölkəmizin ümumi inkişafına sanballı töhfələr verib. Təsadüfi deyil ki, bu gün Azərbaycan sosial-iqtisadi inkişafına görə dünyada lider ölkələrdən biridir.

Fərəhli haldır ki, hər il büdcə tərtib olunarkən qarşıya qoyulan ən əsas vəzifə xərclərin səmərəliliyinin artırılması və optimallaşdırılmasıdır. Bu sırada artıq neçə illərdir ki, qarşıya qoyulan vəzifələrdən biri də şəhər və rayonların dövlət büdcəsindən maliyyələşməsinin azaldılması və tədricən dayandırılmasıdır. Regional inkişaf proqramlarının icrasının və bütövlükdə ölkə iqtisadiyyatının inkişafının nəticəsi olaraq ötən illərdə bu istiqamətdə mühüm irəliləyişlər baş verib. Ötən illərdə büdcədən dotasiya alan rayonların sayının xeyli azalması göstərir ki, bütün bölgələrin özünümaliyyələşdirmə prinsipləri əsasında yaşaması mümkündür. Bunun üçün sadəcə hər bir şəhər və rayon özünün potensial imkanlarından düzgün yararlanmalıdır. Son illərdə bəzi rayonların təcrübəsində bunun nə qədər real olduğunu görmək olar.

Gələn ilin də dövlət büdcəsinin layihəsi hazırlanarkən dotasiyadan imtina edən şəhər və rayonların sayı artdı. Belə ki, Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Yevlax, Naftalan, Mingəçevir və Şirvan şəhərləri, Ağcabədi, Ağsu, Astara, Beyləqan, Cəlilabad, Daşkəsən, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Şəmkir rayonları büdcədən maliyyələşməyəcək.

Ümumilikdə gələn il 39 şəhər və rayon dövlət büdcəsindən maliyyə almadan özünü yerli gəlirlər hesabına təmin edəcək. Xatırladaq ki, bu il 35 şəhər və rayon büdcədən maliyyələşmir. Əgər bu rayonlar dotasiyadan imtina etməyə nail olublarsa, digər rayonların da öz hesabına yaşaması tamamilə mümkündür. Ələlxüsus, Azərbaycanın bütün rayonlarının özünəməxsus iqtisadi potensialı, təbii imkanları, ən əsası ölkədə əlverişli biznes mühiti var. Xərclərin optimallaşdırılmasının vacib olduğu indiki şəraitdə isə rayonlar buna daha tez nail olmalıdırlar.

Bir sözlə, Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında bölgələr tərəqqi dövrünü yaşayır desək, yanılmarıq. Dövlət başçısının regionların inkişafı ilə bağlı verdiyi bütün vədlərə əməl etməsi sayəsində indiyədək heç bir proqram, layihə təxirə salınmayıb. Regionların sosial-iqtisadi inkişafını şərtləndirən dövlət proqramının icrası da təsdiq edir ki, qarşıdakı illərdə bölgələrdə hələ çox mühüm sənaye müəssisələri, aqro və texnoparkların açılışlarının şahidi olacağıq.

Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində dövlət başçısı tam əminliklə vurğuladı ki, Azərbaycan bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə gedəcək, bu gün xalqı narahat edən bütün problemlər - sosial infrastruktur, sosial ədalətlə bağlı olan problemlər öz həllini tapacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi Cəlilabad və Yardımlı rayonlarında vətəndaşları qəbul edib

Oktyabrın 29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Cəlilabad, Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov isə Yardımlı rayonunda vətəndaşları qəbul ediblər.

Qırxa yaxın vətəndaşın iştirak etdiyi qəbullar zamanı müraciətlər əsasən dini icmaların dövlət qeydiyyatı, dini icmaların fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri və s. məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***AZƏRTAC***

# "Azərenerji" "Bakı" Elektrik Stansiyasında təmir-bərpa işləri aparır

"Azərenerji" ASC regionlardakı elektrik stansiyalarında olduğu kimi, qoyuluş gücü 104,4 meqavat olan "Bakı" Elektrik Stansiyasında da "itirilmiş" gücün bərpa edilməsi, etibarlılığın və dayanıqlılığın artırılması istiqamətində təmir-bərpa işləri aparır.



Qeyd edək ki, ötən ilin payızında qəbul edilən "Peabilitasiya Proqramına" qədər "Bakı" Elektrik Stansiyasında mövcud 12 aqreqatdan 1 ədədi ümumiyyətlə işləmirdi, qalan 11 aqreqat isə kəsirlə işləyirdi. İlin sonunda bütün aqreqatlarda itirilmiş güc bərpa ediləcək. Belə ki, yaranan problemi aradan qaldırmaq üçün ilin əvvəlindən aqreqatların ehtiyat hissələri sifariş edilərək gətirilib və sazlama işlərinə başlanılıb. 2015-ci ildən fəaliyyətini dayandıran bir ədəd aqreqat da daxil olmaqla son aylarda 7 aqreqat təmir edilib, 2 aqreqatda isə təmir işləri yekunlaşmaq üzrədir. İlin sonuna qədər digər 3 aqreqatda da təmir işləri yekunlaşdıqdan sonra stansiyada 20 meqavat itirilmiş güc bərpa ediləcək. Stansiyada enerjinin istehsalı ilə yanaşı, ötürülməsi istiqamətində də kompleks işlər həyata keçirilib və stansiyadan çıxan 4 ədəd 110 kilovoltluq yüksək gərginlikli hava xətlərindəki problemlər aradan qaldırılıb.

Xatırladaq ki, "Azərenerji" ASC "Bakı" Elektrik Stansiyası ilə yanaşı, "Səngəçal", "Xaçmaz", "Şəki", "Astara" və "Şahdağ" modul tipli elektrik stansiyalarında, həmçinin "Azərbaycan" İstilik Elektrik Stansiyası da daxil olmaqla, ümumilikdə 12 elektrik stansiyasında yenidənqurma, təmir-bərpa işləri həyata keçirir.

***"Azərbaycan"***

# Hafiz Paşayev Prezident İlham Əliyevə Xarici İşlər nazirinin müavini vəzifəsindən azad olunması barədə ərizə ilə müraciət edib

Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ərizə ilə müraciət edərək nazir müavini vəzifəsindən azad olunmasını xahiş edib.

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Hafiz Paşayev müraciətində əmək fəaliyyətinin 27 ilini müstəqil Azərbaycanın dövlət strukturlarında işlədiyini və ölkəmizin maraqlarını hər zaman yüksək tutaraq müasir Azərbaycanın banisi Heydər Əliyevin və Prezident İlham Əliyevin etimadını doğrultmaq üçün əlindən gələni əsirgəmədiyini qeyd edib. Hafiz Paşayev dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda aparılan islahatların səmərəli şəkildə həyata keçirilməsi üçün dövlət qulluğuna yeni və gənc kadrların gətirilməsi çağırışını nəzərə alaraq öz istəyi ilə belə bir addım atıb.

Məlumatda deyilir ki, Hafiz Paşayev ADA Universitetinin rektoru vəzifəsini və universitetin XİN-in nəzdində olduğunu nəzərə alaraq, nazirliyin kollegiyasının üzvü kimi fəaliyyətini davam etdirəcək.

# Azərbaycanın Müdafiə naziri bir sıra görüşlər keçirib





Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov MDB-yə üzv dövlətlərin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Belarus Respublikasının Müdafiə naziri, general-leytenant Andrey Ravkov ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənov Azərbaycanın Belarus ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edərək, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğunu vurğulayıb. Azərbaycanın Belarusun müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığa xüsusi önəm verdiyini qeyd edən Müdafiə naziri hazırda hərbi-texniki sahədə əməkdaşlığın da uğurla inkişaf etdiyini və genişləndiyini bildirib.

Qeyd edilib ki, Azərbaycan və Belarus beynəlxalq təşkilatlarda aktiv fəaliyyət göstərir və bütün məsələlərdə qarşılıqlı dəstək verirlər. Müdafiə naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərinə görə Belarus rəhbərliyinə və xalqına minnətdarlığını bildirib.

General-polkovnik Z.Həsənov Belarusun ölkəmizdə yeni hərbi attaşesi, polkovnik Andrey Kaptiloviçi bu vəzifəyə təyin olunması münasibətilə təbrik edərək, onun fəaliyyətinin ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan dostluq münasibətlərinin inkişafına yönələcəyinə əminliyini ifadə edib.

Tərəflər ikitərəfli hərbi əməkdaşlığın və ölkələrimizin Müdafiə nazirlikləri arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini qeyd ediblər.

Söhbət zamanı Azərbaycan ilə Belarus arasında hərbi sahədə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri ətraflı təhlil edilib, dövlətlərimizin regional təhlükəsizliyə töhfələri xüsusi vurğulanıb.

Görüşün sonunda Azərbaycan Respublikasının və Belarus Respublikasının Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli Əməkdaşlıq Planı imzalanıb. Plan ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsi, qabaqcıl təcrübə mübadiləsi və digər vacib məsələləri nəzərdə tutur.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov MDB-yə üzv dövlətlərin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının Müdafiə naziri, general-mayor Bahodir Kurbanov ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, tərəflər hər iki ölkənin Müdafiə nazirlikləri arasında əməkdaşlığın inkişafında maraqlı olduqlarını deyiblər. Qeyd edilib ki, Azərbaycan ilə Özbəkistan arasında təhlükəsizlik sahəsində əməkdaşlıq Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələrində sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edir.

Görüşdə müdafiə və hərbi təhsil sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı bir sıra məsələlər müzakirə olunub, hərbi-texniki sahədə qarşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsi barədə geniş fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli hərbi Əməkdaşlıq Planı imzalanıb.

# XİN: "Ermənistanın siyasətinin işğalçı mahiyyəti dünya ictimaiyyətinin üçdəikisini təşkil edən Qoşulmama Hərəkatı tərəfindən tanındı"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünə ifadə olunan dəstəklə bağlı bəyanat yayıb.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a daxil olan bəyanatda deyilir: "Bu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün Yekun sənədi və bu yüksək səviyyəli tədbirdə iştirak edən 159 nümayəndə heyəti birmənalı şəkildə Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı beynəlxalq hüququn norma və prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan qəti mövqeyini təsdiq etdi. Belə ki, bu mövqe bundan öncə də Qoşulmama Hərəkatının münaqişə ilə bağlı mövcud olan *"münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyi"* çağırışını təkrar edərək, bu məsələdə daha irəli addım atıldı və *"güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyi vurğulanır və təsdiq edilir ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq və bu ərazilərdə iqtisadi fəaliyyət də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək"* müddəası yekdilliklə qəbul edildi. BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum dörd qətnamələrində Azərbaycan ərazilərinin işğalına dərhal, tam və qeyd-şərtsiz son qoyulması ilə bağlı əks olunan mövqe, beynəlxalq təşkilatların bu xüsusda qəbul etdikləri digər çoxsaylı qərar və qətnamələrə əlavə olaraq, Ermənistanın siyasətinin işğalçı mahiyyəti növbəti dəfə və dünya ictimaiyyətinin üçdəikisini təşkil edən Qoşulmama Hərəkatı tərəfindən tanındı.

Beynəlxalq hüququn norma və prinsiplərini, eləcə də Qoşulmama Hərəkatının təməl prinsiplərini kobudcasına pozaraq Azərbaycana qarşı qanunsuz zor tətbiq edən və ölkənin ərazi bütövlüyünü pozan, hazırda Azərbaycanın ərazilərinin beşdəbirini hərbi işğal altında saxlayaraq bu ərazilərin yerli azərbaycanlı əhalisinə qarşı qanlı etnik təmizləmə həyata keçirən, mülki əhaliyə qarşı Xocalı soyqırımı kimi qətliamı törədən və hazırda öz destruktiv mövqeyi və anneksiya siyasəti ilə münaqişənin danışıqlar yolu ilə həllinə maneə törədən Ermənistanın nə beynəlxalq hüquqdan, nə də sülh prosesi öhdəliyindən danışmağa haqqı var. Bu gün beynəlxalq ictimaiyyətin tanıdığı və həllini tələb etdiyi bir həqiqət var, o da Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarının Ermənistan tərəfindən işğal olunduğu və bu işğala son qoyularaq münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi tələbindən ibarətdir. Bunu görmək istəməyən yeganə ölkə isə elə işğalçı ölkə Ermənistandır.

Digər beynəlxalq təşkilatlarda olduğu kimi, Qoşulmama Hərəkatının da mövqeyi məhz beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, ATƏT-in Helsinki Yekun Aktına, Hərəkatın təməlini təşkil edən Bandunq prinsiplərinə əsaslanır. Belə ki, bütün hallarda qanunsuz güc tətbiqi, ölkələrin beynəlxalq tanınmış sərhədlərinin və ərazi bütövlüyünün pozulması qəti şəkildə pislənilir. Təcavüzkar siyasəti ilə bölgədə sülh və təhlükəsizliyə təhdid törədən Ermənistanın iddia etdiyi kimi, "təhlükəsizlik təminatçısı" qismində çıxış etməsi üçün, ilk növbədə, ərazi iddialarına son verməsi və mövcud təhlükəsizlik mühitini dərk etməsi gərəkdir. Yalnız Azərbaycan hökuməti və ölkənin Konstitusiyası dövlətin ərazisində yaşayan bütün əhalinin, o cümlədən işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin əhalisinin təhlükəsizlik təminatçısıdır və bundan sonra da belə olacaq".

# XİN: Ermənistan müdafiə nazirinin "Qarabağ məsələsi öz həllini tapıb" fikri xəstə təxəyyülün məhsuludur

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Ermənistan müdafiə nazirinin münaqişənin həlli ilə bağlı dediyi "Qarabağ məsələsi öz həllini tapıb" fikrinə münasibət bildirilməsi ilə bağlı KİV-in ünvanladığı sualı cavablandırıb.

AZƏRTAC xəbər verir ki, mətbuat katibi Leyla Abdullayeva deyib: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq vasitəçilərin iştirakı ilə uzun illərdir ki, səylərin davam etdiyi bir vaxtda işğalçı ölkənin müdafiə nazirinin belə bir fikirlə çıxış etməsi yalnız xəstə təxəyyülün məhsulu ola bilər.

Bilirsiniz, faşizmi qəhrəmanlaşdıran, Azərbaycanın ərazilərini işğal edərək bu torpaqlarda yaşayan yerli azərbaycanlılara qarşı qanlı etnik təmizləmə həyata keçirən və Xocalı soyqırımı kimi vəhşilik törədən bir ölkənin müdafiə nazirindən daha nə gözləmək olar?! Ancaq bir məqamı vurğulamaq istərdim, Ermənistanda qəhrəman səviyyəsinə yüksəldilən faşist cəlladı Qaregin Njde də vaxtilə məsələnin həll edildiyini düşünürdü, ancaq onun aqibətinin necə olduğu hamıya bəllidir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn prinsipləri tam təmin edildikdən və ədalət bərpa olunduqdan, beynəlxalq ictimaiyyətin də tələb etdiyi kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinin və ərazi bütövlüyünün bərpasından sonra həll olunacaq".

# Gəncədə seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunmuş seminar keçirilib

Bu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) təşkilatçılığı ilə oktyabrın 29-da Gəncədə seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunmuş seminar keçirilib.

AZƏRTAC xəbər verir ki, seminarda MSK üzvü Tofiq Həsənov, Komissiya Katibliyinin Hüquq şöbəsinin müdiri Rafiq Abbasov, həmçinin respublikanın ayrı-ayrı şəhər və rayonlarına aid 33 seçki dairəsi dairə seçki komissiyalarının hər birindən 3 ekspert qrupu üzvü olmaqla, ümumilikdə 99 nəfər aşağı seçki komissiyası rəsmisi iştirak edib.

Tədbirin keçirilməsində əsas məqsəd dairə seçki komissiyalarının ekspert qrupu üzvlərinin müraciətlərə baxılması ilə bağlı məlumatının artırılması, praktiki vərdişlərinin gücləndirilməsi və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün onların fəaliyyətinin təkmilləşdirilməsindən ibarətdir.

Seminarı açan MSK üzvü Tofiq Həsənov "Seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri" mövzusunda məruzə ilə çıxış edib.

Bildirilib ki, bu gündən etibarən MSK seçkilərlə bağlı müraciətlərə baxılmasına dair seminarlara başlayır. Məhz MSK uzun illər ərzində topladığı təcrübə əsasında seçki hüquqlarının daha səmərəli təmin olunması istiqamətində ardıcıl iş aparır. Bu sahədə komissiya rəhbərliyi əsasən iki sahəyə daha ciddi diqqət ayırır: birincisi, əvvəlcədən seçki hüquqlarının pozulmasına yol verilməməsi, ikincisi isə əgər bu cür hallar baş verərsə, hüquqların pozulması ilə əlaqədar seçki subyektlərinin müraciətlərinə vaxtında, dəqiq, düzgün və obyektiv olaraq baxılması və sonda ədalətli qərar qəbul edilməsi.

MSK tərəfindən seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunan 4 regional seminar nəzərdə tutulub. İlk olaraq bu cür seminarlara Gəncə şəhərindən başlanılıb. Seminarda seçki hüquqlarının pozulması ilə bağlı müraciət və şikayətlərə baxılarkən əsasən seçki komissiyalarının nəzdində yaradılmış ekspert qrupunun üzvləri tərəfindən başlıca olaraq hansı məqamlara diqqət ayrılması izah olunub. Bununla əlaqədar qanunvericiliyin əsasları, tələblər və prinsiplər dairə seçki komissiyalarının ekspert qrupu üzvlərinin diqqətinə çatdırılıb.

MSK Katibliyi Hüquq şöbəsinin müdiri Rafiq Abbasov "Seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması, ekspert qruplarının fəaliyyətinin əsasları" haqqında geniş təqdimatla çıxış edib.

Seminar iştirakçılarına seçkilərlə bağlı qanunvericiliyin əsasları, xüsusən Seçki Məcəlləsində əksini tapmış bir çox məsələlər, şikayət vermək hüququna malik subyektlər, şikayətin obyekti, forması və məzmunu, seçki hüquqlarının pozulmasına dair şikayət verilmə müddəti, şikayətə dair qərar qəbul edilməsi müddəti, eləcə də müraciət və şikayətin qəbul olunmasından sonra növbəti prosedurlar ətraflı izah edilib.

Tədbirin sonunda seçki hüquqlarının pozulmasını iddia edən subyektlərin müraciətləri zamanı qarşıya çıxan məsələlər, şikayət və müraciətlərin xarakteri, ekspert qrupu üzvlərinin həyata keçirəcəyi tədbirlərin ardıcıllığı, qərarların qəbulu və tərtib olunması, eləcə də digər məsələlər əyani vəsaitlərlə praktiki şəkildə izah olunub. Seminarın praktiki hissəsində, həmçinin kazuslar üzrə müxtəlif şikayət və müraciət nümunələri nəzərdən keçirilib və aidiyyəti seçki komissiyalarının həmin şikayətlərə dair müvafiq qərarlarının qəbul edilməsi məsələlərinə baxılıb.

Sonda mövzular ətrafında müzakirə aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd etmək lazımdır ki, irimiqyaslı maarifləndirmə layihəsi kimi oktyabrın 29-da Gəncədə başlayan regional seminarlar Şəki, Masallı və sonda Bakı şəhərində keçirilməklə noyabrın 4-dək davam edəcək və ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərini əhatə edəcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dünya Bankı: kredit alınması üzrə Azərbaycan dünyada birincidir

Dünya Bankı tərəfindən dünya ölkələrinin iqtisadiyyat, xüsusilə də biznes və investisiya mühitlərinin hərtərəfli analiz olunduğu "Doing Business" hesabatının 2020-ci il buraxılışı dərc edilib.




Hesabatın nəticələrinə əsasən, keçənilki buraxılışda olduğu kimi, bu il də Azərbaycan yüksək sıralarda qərarlaşıb, ölkəmizin həyata keçirilən islahatlar sayəsində müxtəlif meyarların dəyərləndirilməsi üzrə göstəriciləri daha da yaxşılaşıb.

Belə ki, 2018-2019-cu illərdə ölkələrin ümumi dəyərləndirilməsində Azərbaycan 190 ölkə arasında 34-cü yerdə qərarlaşıb, kredit əlçatanlığı, əmlak qeydiyyatı, investorların hüquqlarının qorunması və investisiya münasibətlərində müqavilələrin rəhbər tutulması və digər istiqamətlərdə aparılmış təkmilləşdirmələr nəticəsində ötən ildə olduğu kimi, bu il də 20 ən islahatçı ölkə sırasında yer alıb.

Sevindirici haldır ki, "Doing Business 2020" hesabatına əsasən, kredit alınması indikatoruna görə ölkəmiz ən yüksək nəticə əldə edərək 190 ölkə arasında ötən ilki 22-ci mövqedən 1-ci yerə yüksəlib. Qeyd edək ki, Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrinin və özəl kredit bürosunun yaradılması, həmçinin "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa və Mülki Məcəlləsinə müvafiq dəyişikliklərin, sadələşdirmələrin edilməsi bu nəticəni şərtləndirən amillərdən olmuşdur.

Bununla yanaşı, biznesə başlamaq göstəricisi üzrə ölkəmiz keçənilki mövqeyini təkrarlayaraq 9-cu yerdə qərarlaşıb, müqavilələrin icrası indikatoru üzrə isə 40-cı yerdən 28-ci yerədək irəliləyib. Məlumat üçün bildirək ki, ölkəmiz tikinti icazələrinin alınması üzrə 59-cu, vergilərin ödənilməsi üzrə 40-cı, əmlakın qeydiyyatı üzrə 44-cü, müflisləşmənin həlli indikatoru üzrə 47-ci, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə 80-ci, sərhəddə ticarət üzrə 83-cü yerdə qərarlaşıb.

## 9 ay üzrə sığorta bazarının göstəriciləri açıqlanıb

Sığorta alətlərinin bazar penetrasiyasının artırılması ilə bağlı sığorta məhsullarının çeşidinin artırılması və sığorta bazarının inkişafı istiqamətində Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilib.

Cari ilin yanvar-sentyabr aylarında ölkədə fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 522,5 milyon manat məbləğində sığorta haqqı toplanıb, 201,7 milyon manat məbləğində sığorta ödənişi həyata keçirilib.

Könüllü sığorta bazarı üzrə haqlar 351,7 milyon, ödənişlər 143,4 milyon manat təşkil edib. İcbari sığorta bazarına gəldikdə, burada toplanan haqlar 170,7 milyon, ödənişlər isə 58,3 milyon manat olub.

İlin 3 rübü ərzində sektor üzrə məcmu sığorta haqlarının 67,3 faizi könüllü, 32.7 faizi icbari sığorta növlərinin payına düşüb. Sığorta ödənişlərinin 71,1 faizi könüllü, 28,9 faizi icbari sığorta növləri hesabına formalaşıb.

Qeyri-həyat sığortasının könüllü növlərində 2 faiz (3,7 milyon manat), icbari növlərində isə 7 faiz (9,1 milyon manat) olmaqla sığorta haqlarının artımı davam edib. Könüllü növlərdə ən böyük artım tibbi sığorta üzrə qeydə alınıb. Belə ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz və ya 9 milyon manat artım müşahidə edilib. Könüllü növlər üzrə əmlak sığortası növlərindən nəqliyyat vasitələrinin sığortasında da (avtonəqliyyat vasitələrinin sığortası 26 faiz və ya 5,3 milyon manat, su nəqliyyat vasitələrinin sığortası 29 faiz və ya 1,7 milyon, hava nəqliyyatı vasitələrinin sığortası 6 faiz və ya 0,6 milyon manat) artım olub.

İcbari sığortalar üzrə sığorta haqları keçən ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz (17,1 milyon manat) artıb. Qeyri-həyat sığortasının icbari növləri üzrə artımın əsas drayverləri avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (5 faiz və ya 3,6 milyon manat artım), daşınmaz əmlakın icbari sığortası (21 faiz və ya 4,9 milyon manat artım) və məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası (9 faiz və ya 1,1 milyon manat artım) növləri olub.

Vergi sahəsində aparılmış islahatlar nəticəsində daha öncə təklif edilən vergi güzəştlərinin və həyatın yaşam sığortasına yönəldilən vəsait üzrə limitin azaldılması ilə əlaqədar ümumilikdə həyat sığortasında azalma olsa da, sosial-iqtisadi əhəmiyyət daşıyan növlərdən olan istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə 29 faiz (8,1 milyon manat) artım qeydə alınıb.

Ödənişlərdə keçən ilin müvafiq dövrü ilə müqayisədə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 10,4 milyon manat, hava nəqliyyatı vasitələrinin sığortası üzrə 5,4 milyon, avtonəqliyyat vasitələrinin sığortası üzrə 2,6 milyon manat artım olub. Azalma isə əsasən tibbi sığorta (1 milyon manat) və hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası (2 milyon manat ) üzrədir. Sözügedən növlər üzrə ödənişlər müvafiq dövr ərzində hadisənin başvermə intensivliyindən asılı olaraq dəyişib.

### Neft Daşları - 70




*Əvvəli 1-ci səh.*

Adil Abdullayev bu özüllərin hər birini öz doğma evi kimi tanıyır. Sahələrini, bir-birindən nə qədər aralıda yerləşdiklərini, nə vaxt quraşdırıldıqlarını, geoloji quruluşlarını əzbər bilir. Hər özüldən hasilat göstəricilərini yüksəltmək üçün aparılan geoloji tədbirlərdən danışanda isə əsl həkimi xatırladır. Köhnə yataqlarda geoloq işləməyin xüsusiyyəti budur. Sanki hər quyunu müalicə etməlisən.

- "Palçıq Pilpiləsi"ndə 15 horizont istismar olunur. Yataqdan gündə orta hesabla 250-260 ton neft hasil edilir. Biz geoloqlar yaxşı bilirik ki, "Palçıq Pilpiləsi"nin ehtiyatları hələ çoxdur. Odur ki, bu ehtiyatları üzə çıxarmaq üçün əlimizdən gələni əsirgəmirik. NQÇİ-nin geoloji şöbəsindən aldığımız layihələri incəliyinə qədər öyrənirik. Çox vaxt idarənin baş geoloqu Əhəd Abdıyevlə, işlənmə şöbəsinin rəisi, geoloq Azər Mehdiyevlə layihələri müzakirə edir, fikir mübadiləsi aparır, ümumi qərara gəlirik.

Demə, nə vaxtsa kəşf olunan, illərdir neft və qaz verən yatağın da geoloqa böyük ehtiyacı varmış. Qazmanın keyfiyyəti ilə maraqlanmaq, qazılmış quyu ilə lay arasında əlaqə yaratmaq, neftin axınını təmin etmək onun vəzifəsinə aid olan işlərin yalnız bir hissəsidir. Layların neftvermə gücü daim diqqət mərkəzində olmalı, ardıcıl şəkildə ölçülməlidir. Onların bərkidilməsi üçün də mütəmadi tədbirlər görülməlidir. Hər hansı bir yatağın növbəti laylarına istinad edilməsi də geoloqun məsuliyyətli və dəqiq qərarından sonra baş verir.

Adil Abdullayevin əməyi, sənət sevgisi, səriştəsi, qazandığı hörmətin timsalında Xəzərin qoynunda çalışan böyük neftçi-geoloqlar dəstəsinin ordusunun hər bir üzvünün keçdiyi yolu görmək mümkündür.

Neft Daşlarına 1990-cı ildə Azərbaycan Neft və Sənaye Universitetini bitirdikdən sonra gəlib. Həmin il onunla birlikdə buraya universitetin məzunu olan dostları Zöhrab Nəsibov, Fərrux Məmmədov, Elşad Eyyubov da təyinat almışdılar. İdarənin müxtəlif sahələrində hamısı işlə təmin olundu. Adilə geoloji şöbədə öz ixtisası üzrə iş təklif etsələr də, o, operator işləmək istədiyini bildirdi. Məqsədi özünü sınamaq, ali məktəbdə öyrəndiklərini istehsalatda əyani görmək, tətbiq etmək idi. Beləliklə, iki ildən çox bir müddətdə bərkdən-boşdan çıxandan, Xəzərlə həmişəlik ülfət bağlayandan sonra onu indiki vəzifəsinə təyin etdilər...

Söhbətimiz bitər-bitməz geoloqu yenidən estakadalarda görürük. Bu gün dəniz sakit olduğundan məhəccərə söykənib uzaqlara baxır. Bəlkə hansısa özüldə yarımçıq qalmış işini xatırlayıb oraya yollanmağı (vertolyot, yaxud gəmi ilə) düşünür. Bəlkə xəyalı Bakıya, evinə, ailəsinin yanına qanadlanıb, əziz balaları Arzu, Nəsir və Ləman üçün qəribsəyib. Bəlkə boş vaxtının əksəriyyətini keçirdiyi Hacıqabuldakı bağ-bağçası yadına düşüb?

Kim bilir, bəlkə də bayaqdan keçdiyi yollardan danışdığına görə ömürnaməsinin anadan olduğu Şamaxıda - Udluda, Qubalıda yazılan ilk səhifələrini vərəqləyir... Anası Anamxanım professor Əzizə Cəfərzadə ilə bir sinifdə oxumuşdular, qohumluq əlaqələri də vardı, yaxın münasibət saxlayırdılar. Adil kiçik olanda Əzizə xanım onun başına o qədər sığal çəkmişdi ki! Yazıçı-alim bəlkə də bu balaca oğlanın ağıllı gözlərinə baxdıqca güman etmişdi ki, o, ya ədəbiyyatçı, ya tarixçi olacaq. Adil isə dayıları Mirxalıqın və Ağaseyidin yolu ilə getdi, neftçi oldu. Şeir, hekayə yazmadı, geoloq kimi Neft Daşlarının salnaməsinə öz dəstxətini həkk etdi.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan qlobal istedad rəqabətliliyi indeksində MDB-də liderdir

Azərbaycan "Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019" Hesabatında daha 14 pillə irəliləyərək 125 ölkə arasında 43-cü yerdə qərarlaşmaqla Baltik respublikaları istisna olmaqla postsovet məkanında lider mövqedədir.

AZƏRTAC xəbər verir ki, hesabatı şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı deyib: "Postsovet məkanında Azərbaycanın ən yaxın izləyiciləri Rusiya 49-cu və Qazaxıstan isə 57-ci yeri tutub. Azərbaycan bu indeksə görə 2015-2016-cı ildə 71-ci, 2017-ci ildə 66-cı və 2018-ci ildə 57-ci yerdə qərarlaşmışdı. Azərbaycan qlobal istedad rəqabətliliyi indeksinə görə yuxarı orta gəlirli ölkələr arasında top-3-lükdə qərarlaşmaqla daxil olduğu region - Qərbi Asiya və Şimali Afrika ölkələri arasında 7-cidir".

O bildirib ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi" hesabatı 5 indikator əsasında hesablanır: istedada yaradılan şərait, istedadın cəlb edilməsi, istedadın inkişafı, istedadın ölkədə qalmasının təmin edilməsi, peşə və texniki təhsil, yüksək ixtisaslar. Azərbaycan bu indikatorlar üzrə ən yüksək reytinqi peşə və texniki təhsil (25-ci yer) və ən aşağı reytinqi isə istedadın inkişafında (81-ci yer) alıb. Digər indikatorlar üzrə vəziyyətimiz belə olub: istedada yaradılan şərait 48-ci yer, istedadın cəlb edilməsi 44-cü yer, istedadın ölkədə qalmasının təmin edilməsi 41-ci yer və yüksək ixtisaslar 68-ci yer.

"Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019"da Azərbaycan bir sıra sub-indikatorlarda daha öndə olub: işə götürmənin asanlığı birinci yer, aktiv əmək bazarı siyasəti 32-ci, işçi-işəgötürən əməkdaşlığı 30-cu, əməkhaqqının məhsuldarlığa uyğunluğu 14-cü, birbaşa xarici investisiyalar və texnologiya transferi 28-ci, istedadların cəlbi 17-ci, qadınların liderlik imkanları 34-cü, müəssisə daxilində əməkdaşlıq 26-cı, müəssisələr arasında əməkdaşlıq 19-cu, sosial müdafiə 33-cü, istedadların ölkədə saxlanılması 25-ci, həkim sıxlığı 26-cı, orta təhsilli əmək qüvvəsi 5-ci, orta təhsilli əhali 4-cü, ixtisaslı işçinin tapılması imkanı 30-cu, təhsilin iqtisadiyyata uyğunluğu 33-cü, orta təhsilin əmək bazarına uyğunluğu 20-ci, ali təhsilin əmək bazarına uyğunluğu 36-cı, ali təhsilli əhali 33-cü, alimlərin və mühəndislərin əlçatanlığı 23-cü yer. Hesabatın məqsədi innovasiya, artım və rəqabətliliyi gücləndirmək üçün fərdlərin və komandaların potensialı və istedadı ətrafında qlobal müzakirə açmaqdır. Xüsusilə sahibkarlıq istedadını araşdıran hesabatda Azərbaycanın öncüllüyü Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi və sahibkarlığın inkişafı siyasətinin birbaşa nəticəsidir. Təkcə 2019-cu ildə həyata keçirilən 2 inqilabi sosial paket birbaşa insan kapitalına qoyulan sərmayədir və dövlətimizin başçısının siyasətinin mərkəzində insan amilinin olmasını göstərir. Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti Azərbaycanda əldə olunan iqtisadi nailiyyətlərin sosial rifah halının, o cümlədən, insan kapitalının inkişafına yönəldilməsində əhəmiyyətli rol oynayır", - deyə V.Qasımlı bildirib.

Qeyd edək ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019" Hesabatı dünyanın lider universitetlərindən olan INSEAD Biznes Məktəbi, "The Adecco Group" və "Tata Communications" tərəfindən hazırlanıb.

## Yığım da, emal da fasiləsiz davam edir

*Əvvəli 1-ci səh.*

Xam pambığı emal edən müəssisələrdən biri "MKT Neftçala" filialıdır. Filial cari ilin əvvəlində 710 fermer və torpaq mülkiyyətçisi ilə müqavilə bağlamışdır. Əkin və becərmə dövründə mülkiyyətçilər toxum, texnika, mineral gübrələr, ziyanvericilərə qarşı mübarizə aparmaq üçün müxtəlif preparatlar, habelə pulla təmin olunmuşlar. Filialın mütəxəssisləri daim əkinçilərin yanında olmuş, onlara lazımi məsləhətlərini vermiş, kömək göstərmişlər.

Oktyabr ayının 25-dək müəssisə üzrə 3 min 272 hektardan 10 min 287 ton məhsul toplanılıb. Bunun 8 min 876 tonu - 86,3 faizi maşınlarla yığılıb. Xam pambığın 97,1 faizi birinci növdür. Məhsuldarlıq sahəsində əldə olunan göstəricilər ürəkaçandır. Belə ki, ilin əvvəlində hər hektardan 27 ton məhsul götürmək planlaşdırıldığı halda, artıq bu rəqəm 42,6 sentnerə çatmışdır. Yığım hələ davam edir. Mütəxəssislərin dediyinə görə, sahələrdə hələ məhsul çoxdur. İndi hər gün tarlalardan 110-120 ton pambıq yığılır.

Yüksək nəticənin əldə olunmasında ayrı-ayrı fermerlərin, torpaq mülkiyyətçilərinin əməyi diqqətəlayiqdir. Rafael Hüseynov Neftçala rayonunun Yuxarı Qaralı kəndində yaşayır. Uzun müddət suvarma sistemləri sahəsində çalışıb. 1993-cü ildə 30 hektar yararsız torpaq sahəsini icarəyə götürüb, üzərində meliorativ tədbirlər həyata keçirib. Sahə tədricən saflaşıb. Sonra təsərrüfatını genişləndirərək 100 hektara çatdırıb. İlk illər həmin sahələrə arpa əkib ki, torpaq münbitləşsin. Sonra digər bitkilər yetişdirib. Cari ildə isə "MKT Neftçala" filialı ilə müqavilə bağlayaraq 41 hektarda pambıq əkib. Çalışıb ki, bütün aqrotexniki tədbirləri vaxtında və yüksək keyfiyyətlə həyata keçirsin. Çəkilən zəhmətin əvəzində torpaq bol məhsul yetirib. İndiyədək tarlalardan 145 ton pambıq götürüb ki, bu da hər hektardan 35 sentner məhsul deməkdir. Üstəlik, bu rəqəm də hələ son deyil, çünki yığım davam edir.

Təcrübəli fermer R. Hüseynov başa çatmaqda olan təsərrüfat ilində 30 hektarda arpa və buğda da yetişdirib. Bunlardan əlavə, o, heyvandarlığı da yaddan çıxarmayıb. 600 baş davar, 100 baş qaramal saxlayır. Onlar üçün 24 hektarda yonca əkib-becərir.

İmadəddin Dadaşov Yuxarı Qaramanlı kənd sakinidir. Bir neçə ildir, pambıqçılıqla məşğuldur. O, bu sahədə böyük təcrübə qazanmışdır. İ. Dadaşov da "MKT Neftçala" filialı ilə müqavilə bağlayaraq yaxşı pambıq yetişdirib. Hələlik 61 ton pambıq tədarük edib. Məhsuldarlıq 42 sentnerdir. Hədəf isə ən azı 50 sentnerdir. Boyat kənd sakinləri Əlihüseyn Hacıyev, Arif Qəfərov və başqaları da bol məhsul yetişdirmişlər.

Üç növbədə işləyən "MKT Neftçala" filialında indiyədək 1115 tondan çox mahlıc, 1400 ton çiyid istehsal edilib. Hər ton xam pambıqdan 426 kiloqram mahlıc alınır ki, bu da yüksək göstərici sayılır. Emal edilən mahlıcın hamısı birinci növdür. Türkiyə, İran, Bakı İplik Müəssisəsinin və Mingəçevir Tekstil Kombinatının nümayəndələri gəlib məhsula baxmış və almaq üçün müqavilə bağlamışlar. Alınan çiyid MKT şirkətinin Şirvan şəhərindəki Yağ-piy zavoduna göndərilir. Emal olunan pambıqdan mahlıcla bərabər 29 ton lint, 15 ton ulyuk, 15 ton tiftik alınır. Bu məhsulların əsas alıcıları qardaş Türkiyənin iş adamlarıdır.

80 nəfərin çalışdığı zavod dayanmadan məhsul qəbul edir. Tədarük olunan xam pambıq fasiləsiz emal olunur. Bunlar isə kənd adamlarının pul gəlirlərinin artması, güzəranlarının yaxşılaşması ilə bərabər, ölkə iqtisadiyyatının inkişafı deməkdir.



***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Bankların iradlardan nəticə çıxarıb MBNP ilə birgə tədbirlər görməsi qərara alınıb

Məlum olduğu kimi, oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə dövlət başçısı İlham Əliyev ölkə iqtisadiyyatının müxtəlif istiqamətləri ilə yanaşı, maliyyə bazarlarındakı cari vəziyyət, sektorun səmərəliliyinin və dayanıqlılığının artırılması baxımından həyata keçirilən islahatlara toxunmuş, qarşıdakı dövr üçün konkret hədəflər və vəzifələri müəyyənləşdirmiş, bu istiqamətdə tapşırıqlar vermişdir.

Müşavirədə Prezident tərəfindən maliyyə-bank sektoru ilə əlaqədar verilmiş tapşırıqların icrası məqsədilə Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) təşkilatçılığı, Azərbaycan Banklar Assosiasiyasının, həmçinin ölkədə fəaliyyət göstərən istehlak yönümlü bankların iştirakı ilə iclas keçirilmiş, fəaliyyət istiqamətləri müzakirə edilmişdir. Palatadan verilən məlumata görə, iclası giriş sözü ilə açan Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin sədri vəzifəsini icra edən İbrahim Alışov qeyd edib ki, ölkə rəhbərliyi tərəfindən əsas götürülən iqtisadi kurs zəminində Azərbaycan iqtisadiyyatının davamlı imkişafının təmin edilməsi istiqamətində həyata keçirilən islahatlar, əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə müsbət qiymətləndirilir, islahatların doğurduğu pozitiv trendlər və inkişaf perspektivləri Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən dərc olunan hesabatlarda öz əksini tapır: "Dünya Bankının son "Doing Business" hesabatında biznes mühitinə görə Azərbaycan dünya ölkələri arasında 25-ci yerdə qərarlaşıb, 20 ən islahatçı ölkə sırasında yer alıb. Bununla yanaşı, qlobal səviyyədə ölkələr üzrə maliyyə bazarlarının analizini həyata keçirən "Moody's" Beynəlxalq Reytinq Agentliyi son hesabatında Azərbaycanın mövqeyini sabit Ba2 səviyyəsində təsdiqləyib, məqsədyönlü islahatlar nəticəsində maliyyə-bank sektorunda kredit verilməsi əmsalının yüksəlməsi, ehtimal olunan maliyyə risklərinin aşağı salınması və sektorun elastikliyinin artırılması baxımından atılan addımları müsbət qiymətləndirib. Oxşar mövqe daha bir nüfuzlu maliyyə təşkilatı olan Fitch Beynəlxalq Reytinq Agentliyi tərəfindən də təsdiqlənib və BB+ reytinqi ilə ölkəmiz Şərqi Avropa və post-sovet məkanında yerləşən 22 ölkənin dəyərləndirildiyi üçüncü rüb hesabatında Cənubi Qafqaz üzrə birinci yerdə qərarlaşıb", - deyə İ.Alışov bildirib.




Dövlət başçısının müşavirədə səsləndirdiyi haqlı iradlara gəldikdə, İ.Alışov istehlak kreditlərinin biznes kreditləri ilə müqayisədə daha çox artdığını, bu faktorun ölkə rəhbərinin də vurğuladığı kimi, bank sektorunda yaxın keçmişdə baş vermiş böhranın əsas səbəblərindən biri olduğunu, bankların real sektordan daha çox istehlak kreditlərinin verilməsinə maraq göstərdiklərini mənfi hal olaraq diqqətə çatdırıb, bu istiqamətdə qəti addımların atılmalı olduğunu vurğulayıb. Görüşdə o da qeyd olunub ki, istehlak kreditləşməsinin aktiv fazaya keçməsi və bu trendin banklar tərəfindən tənzimlənməsinin vacibliyi ilə bağlı ötən il və cari ildə MBNP-nin təşkilatçılığı ilə banklarla analoji görüşlər keçirilsə də, arzuolunan nəticələrə tam nail olunmuşdur.

Daha sonra Azərbaycan Banklar Assosiasiyasının və bankların təmsilçiləri çıxış edərək müşavirədə maliyyə-bank sektoru ilə bağlı Prezidentin qaldırdığı məsələləri və iradları əsas götürərək istehlak kreditləşməsi ilə bağlı məsələnin həlli üçün Maliyyə Bazarlarına Nəzarət Palatası ilə əməkdaşlıq əsasında tədbirlərin görülməsinə, həmçinin biznes kreditlərinin artımı məqsədilə real sektorda yetərli tələbin formalaşdırılması üçün aidiyyəti dövlət strukturları ilə birgə əməkdaşlığa hazır olduqlarını bildiriblər.

İclasın yekununda qarşıya qoyulmuş tapşırığın həlli istiqamətində banklarla birgə əməkdaşlıq çərçivəsində prosesin tənzimlənməsi hədəf olaraq qəbul edilmiş və konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Belə ki, bankların strateji planlarının yenidən gözdən keçirilməsi və qısa müddətdə təkliflərin Palataya təqdim olunması qərara alınmış, biznes kreditlərinin təşviqi məqsədilə banklar tərəfindən kredit yarmarkalarının keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Əlavə olaraq, problemin həlli istiqamətində Palata tərəfindən bir sıra normativ xarakterli aktlara dəyişiklik olunacağı və dövlətin iqtisadi blokunu təmsil edən strukturlarla kommunikasiya şəklində məsələyə kompleks yanaşmanın tətbiq ediləcəyi vurğulanmışdır.

***"Azərbaycan"***

◆ “Ədəbiyyat söhbəti”

# ƏDƏBİ KONSERVATOR, MİSTİK REALİST

**Bu günlərdə Xalq yazıçısı Kamal Abdullanın yeni romanı işıq üzü görüb. “Sirlərin sərgüzəşti” adlı əsərdə paralel zaman və məkan, yaddaş fenomeni, real və irreal hadisələrin təsviri özünün ədəbi-bədii əksini tapıb. Bu, müəllifin “Yarımçıq əlyazma”, “Sehrbazlar dərəsi”, “Unutmağa kimsə yox” əsərlərindən sonra sayca dördüncü romanıdır. Biz də onunla elə dördüncü romanının vərəqlərindən hələ mətbəənin “ətri” getməmiş görüşüb söhbətləşdik.**

**Beləliklə, Əməkdar elm xadimi, akademik, I dərəcəli dövlət müşaviri, Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı Kamal ABDULLA ilə “Ədəbiyyat söhbəti”ni təqdim edirik.**



## “Ədəbiyyat söhbətinin gizli iddiası ağıllı söhbət etməkdir”

***- Sizcə, kompüterin, internetin, texnologiyanın tüğyan etdiyi indiki dövrdə ədəbiyyat söhbətləri oxucular üçün maraqlıdırmı?***

- Onu yaxşı dediniz - tüğyan etdiyi. Həqiqətən hər gün bu tüğyanın şahidi oluruq. Ədəbiyyat söhbəti mənə elə gəlir, həmişə lazımdır. Çünki ədəbiyyat söhbəti o demək deyil ki, hökmən hansısa kitabdan, romandan, şeirdən danışasan. Əslində, ədəbiyyat söhbətinin gizli iddiası ağıllı söhbət etməkdir. Bu söhbət bizi bir romandan başlayıb dünyanın ən dərin sirlərinə, bir hekayədən başlayıb qədim tariximizə, bir şeirdən başlayıb xalqımızın, dövlətimizin, cəmiyyətimizin yaşadığı psixoloji məqamlara apara bilər. Yəni ədəbiyyat söhbəti ədəbiyyat naminə yox, bir vasitə, vəsilə kimi bizi başqa vacib mövzulara çıxara bilər. Bu baxımdan belə söhbətlər həmişə gərəklidir.

***- Elə isə başlayaq. Kamal Abdulla müasir Azərbaycan ədəbiyyatını necə qiymətləndirir? Sizcə, bugünkü ədəbiyyat müasir günümüzlə, həyatın dinamikası ilə səsləşir?***

- Vacib deyil hökmən bu günlə səsləşsin. Əlbəttə, həmin o dinamik məqamlar baş verərkən səsləşmənin özü nəyinsə əvvəl, nəyinsə sonra olması deməkdir. Əks-səda nədir? Səs var, sonra əks-səda baş verir. Bu ardıcıllıq duyulursa, xalqımızın, dövlətimizin həyatında baş verən hər hansı hadisə müəyyən zamandan sonra öz əksini bədii aləmdə, yaxud başqa müstəvidə tapmalıdır. Bu halın paralel, eyni zamanda olması mümkün deyil. Amma o əks-səda nə vaxt qulağımıza çatır, bu, artıq başqa məsələdir. Bu gün fiziklər qədim zamanlarda baş vermiş möhtəşəm partlayışın əks-sədasını kainatda axtarıb tapa bilirlər. Ozamankı hadisə - hər şeyi öz içinə yığan bir sinqulyar nöqtənin partlayışı kainatın bugünkü mənzərəsini verib. Səs olan yerdə, əks-səda həmişə var.

## Sükutun səsi

***- Məsələn, bu gün həyatımızda baş verən hansısa “partlayışın” əks-sədası 50-100 ildən sonra eşidiləcək, yazılacaq?***

- Əlbəttə, həyatımızda baş verən partlayışı kimlərsə nə zamansa danışacaqlar. Bu o demək deyil ki, partlayışa şahid olan nəsil artıq yoxdursa, onu yazmayacaqlar, həmin informasiya itibbatacaq. Belə deyil. Bu, qanla, yaddaşla, dərin genetik kodlarla nəsildən-nəslə ötürülən informasiyadır. Bunu biz özümüz də çox zaman hiss edə bilmirik. Çox ola bilər ki, mən özüm XVI, XVII əsrdə yaşamış və hansısa hadisənin təsviri olmuş məqamı özümdən xəbərsiz içimdə bilmədən yaşadıram. Amma o informasiya mənim içimdə qapanıb qalmamaq üçün mənim özümlə əməllibaşlı “mübarizəyə” qalxır. Bəlkə mənim özümü də aldadıb real həyata bədii “maska”da daxil olur. Çünki mən onu içimdən çölə çıxararkən bədii vasitələrdən istifadə edərək onu ədəbiyyat dilinə çevirməyə çalışıram. Bunlar hamısı onu göstərir ki, nə zaman baş verməsindən asılı olmayaraq, hər bir hadisə hökmən öz əks-sədasını tapmalıdır. Hətta biz deyəndə ki, tək əldən səs çıxmaz - ona da şübhəylə yanaşmaq lazımdır. Tək əldən də səs çıxar. Tək əldən sükutun səsi çıxar.

***- 30-40 il öncəki oxucu ilə müasir dövrün oxucusunun fərqi nədir? Ümumiyyətlə, müasir oxucu müəllifdən nə istəyir, nə tələb edir?***

- Əvvəlki oxucu kitaba daha yaxın oxucu idi, indiki oxucu - internetə. Bir var, hansısa əsəri internetdən oxuyasan, bir də var kitabı əlinə alasan, onu vərəqləyəsən, vərəqlərini sığallayasan, ətrini duyasan.

Ümumiyyətlə, mənə həmişə elə gəlib ki, kitab çox oxuyan adamın ağlı da, biliyi də, həyat təcrübəsi də çox olur. O, daha maraqlı, daha ləyaqətli ömür sürə bilər. Amma hərdən oturub fikirləşirəm ki, heç kitab oxumayan adamlar da var. Onların da içində son dərəcə ləyaqətlisi, şərəfli həyat yolu keçənlər, həyat təcrübəsi dərin olanlar olur. Bəs bunu necə anlamaq olar? Deməli, belə çıxır ki, bütövlükdə götürəndə həyat özü bir kitabdır, mətndir. Kimi mətnin mətnini oxuyur, kimi də həyatın özündən öyrənir. Nahaqdan demirlər ki, dünya özü bir kitabdır. Mənə elə gəlir, insanda kitabı çox oxumaq ehtiyacı həyat kitabını adekvat oxuya bilməyəndə yaranır. Həyat kitabını kifayət qədər ciddi şəkildə oxuya bilməyəndə, həyatı həyatın özündən yox, kitabdan öyrənmə məcburiyyətini (ehtiyacını) özündə hiss edirsən. Söhbət təbii ki, ədəbi-bədii kitablardan gedir.

## “Öyrədərək öyrənirəm”

***- Siz həyatı daha çox kitabdan, yoxsa həyatın özündən öyrənmisiniz?***

- Məncə, həyat da məni öyrədir. Sadəcə, həyat bizi öyrədərkən yaxşı öyrənci olmuruq. Bizə dərs olmur ki, bu işi belə yox, elə görərlər. Çünki biz çox zaman həyatda nəticə ilə üzləşmirik. Amma kitab öyrədəndə ki, belə etməyin nəticəsi budur, onda tamlıq olur. Həyatın bizə verdiyində ayrı-ayrı ştrixlər ola bilər, tamlığı bütöv şəkildə hiss etməyə bilərik. Amma kitabda sanki hər şey bir-birini tamamlayan şəkildədir. Ona görə kitabdan öyrənmək daha asan, həyatdan öyrənmək daha çətindir. Həyatı kitab kimi oxuya bilənlər isə xoşbəxt adamlardır. Qısası, hər şey kitabdır, hər şeyi kitabdan öyrənmək olar - həyat kitabından mənim dostum Çingiz Abdullayevin kitablarına qədər...

***- Bu halda kitabın kütləviləşməsi üçün nə etmək lazımdır?***

- Kitabla bağlı usanmadan nələrsə etmək - kitabı sevdirmək, bağışlamaq, hədiyyə vermək... Ona nail olmaq lazımdır ki, bir azərbaycanlı var-dövlət, qızıl əvəzinə kitab yığsın, sənət əsərləri toplasın. Təsəvvür edirsiniz, bunun nəticəsi hansı bəhrəni verə bilər?!

***- Bəs kitabı dükandan birbaşa almaq?***

- İndi alırlar. Az alırlarsa, deməli, həyatdan daha çox öyrənirlər. Bu saat hamı həyatdan, özü də havayı öyrənir. Öyrənmə prosesi insanın özündən asılı olmadan gedir. Mən bu saat tələbələrimdən də öyrənirəm. Bir devizim var - *öyrədərək öyrənirəm.* Latınca bunun adı “Docendo discimus”dur. Elə düşünmək doğru deyildir ki, müəyyən yaşdan sonra adamda artıq öyrətmək mərhələsi başlayır. İnsan yaşından asılı olmayaraq daim öyrənir.

***- Məsələn, sizin kitablarınızı mağazadan alanlar var? Bundan qonorar qazana bilirsiniz?***

- Alanlar var. Azərbaycanda, deməzdim, bundan yaxşı qazanıram. Amma ABŞ-da “Amazon” yayınları kitablarımın satışını izləyir. Nəşriyyat o satışdan mənə qonorar ödəyir. Və yaxud Moskvada gözəl tərcümə ustadı dostum Azər Mustafazadə ilə kitab dükanında satıcıdan öz kitabımı soruşanda bu kitabın artıq satılıb qurtardığı cavabını almaq mənimçün əsl yazıçı sevinci idi.

## “Elə bilirlər, dialektoloji lüğəti oxumaqla yazıçı olmaq olar”

***- Ədəbiyyatda “Atalar və oğullar” mübarizəsinin əsrlərlə ölçülən tarixi var. İllər öncə “oğullar”ı təmsil edən yazıçı Kamal Abdulla bu gün “atalar” statusunda bu mübarizəyə necə baxır?***

- Ata statusunda olmaq hələ o demək deyil ki, sən atasan. Mən buna status yox, libas deyərdim. Ata kimi görünüb oğulluqda qala bilərsən. Oğul əvvəldən ata ola bilər, ata oğul kimi qala bilər. Burada cürbəcür kombinasiyalar mümkündür. Atalar və oğullar mənəvi keyfiyyətlərdir. Yayğın və bir-birinə keçən dəyərlərdir. Sadəcə, mən indi köhnəlik aşiqi olan konservatora çevrilmişəm. Bəlkə də bu mənim təbii dəyişməmdir.

***- Elə isə yeni nəsil şair və yazıçıların yaradıcılıqlarındakı əsas problemləri, eyni zamanda uğurları nədə görürsünüz? Nədə səhv edirlər, harada düzgün yoldadırlar?***

- Sizin sualınızda “istintaq” intonasiyası var. Amma yenə də çalışaq cavab verək. Mən yeni, orta, köhnə nəsil anlayışlarını başa düşməyə çalışıram, amma görürəm ki, yox, yenə də sonadək başa düşmürəm. Söhbət yazıçının yaşından gedirsə, bu bölgünü biblioqrafik göstərici kimi qurmaq mümkündür. Amma söhbət mənəvi müstəviyə keçəndə bu mümkün olmur. Bir də görürsən, cavan yazıçı son dərəcə yaşca böyük adamlardan və mətləblərdən yazır, yaşca böyük yazıçı gənclərdən və gənclik dəyərlərindən yazır. Bəs bunu nəslin hansı yaşına salaq? Həm bioloji, həm də mənəvi bölgü bəzən düzgün qurulmur. Məncə, nəsil əvəzinə məktəb demək olar. Amma vacib deyil, o məktəbə daxil olan ədiblər hökmən bir dövrün adamları olsunlar, bir-birlərini tanısınlar. Ola bilər biri XIX, digəri XX əsrdə yaşasın. Məsələn, Mirzə Cəlil ədəbi məktəbi formalaşıbsa, İsa Hüseynov, Anar, Elçin də o məktəbin nümayəndələridir. Bu baxımdan zaman yüklü nəsil anlayışını əqidə yüklü məktəb anlayışı ilə əvəz edərdim. Bir var mənəvi müstəvidə nəsil, bir də var xronoloji müstəvidə. Bunlar başqa-başqa şeylərdir. Mənəvi müstəvidə yaşlı və gənc yazarların məsələyə (mövzuya) münasibətini müəyyənləşdirmək son dərəcə müşküldür. Amma biz elə 60-cılar nəsli deyib dururuq. 70-ci illər nəsli guya bir az zəifdi, 80-ci illər nəsli demək olar ki, yoxdu. Məlum deyil ki, bu yanaşma hansı rakursdan aparılır. Bəlkə də biz yeni və köhnə nəsil sözlərini deyərkən bioloji və mənəvi meyarları qarışdırırıq. Burada nəsil əvəzinə məktəb anlayışı işə düşsə, daha düzgün olar. Yəni gənc nəsil hökmən gənclik baxışını, dəyərlərini formalaşdıran nəsil olmaya da bilər. Çünki 60-cı illərdə sadəcə, 3-5 yazıçı ədəbiyyatda dönüş yaratmağa çalışdılar və bunu bacardılar. 40-50-ci illərin ahənginə yeni nəfəs gətirdilər. Onların içində yaşlısı da, gənci də vardı. 60-cı illər nəsli anlayışı mənim fikrimcə, eyni ədəbi məktəbə mənsubluq deməkdir. Ayrı-ayrı ölkələrdə də bir məktəbə daxil olan yazıçılar yaşaya bilər, ayrı-ayrı dövrlərdə də.

O ki qaldı gənclərə, yaradıcılığa yeni başlayanların, yeni yazanların mətnlərində qəribə bir təmayül hiss edilir. Bir var yolu düz gedirsən. Bir də var əzilib-büzülürsən ki, diqqəti özünə cəlb edəsən. Diqqəti özünə cəlb etməyə çalışanda sən gücsüz olursan. Buna çalışmayanda güclü olursan. Stendalın “Qırmızı və qara” əsərində Jülyen Sorel obrazı var. Adi təbəqədən çıxmış adamdır. Kübarlar məclisinə düşür. Orda hər kəs paltarını özünəməxsus və ədabaz şəkildə nümayiş etdirir. Jülyenin üstünlüyü onda olur ki, paltarının gözəlliyini gözə soxmağa çalışmır. Çalışmadığı üçün də hamı deyir, nə gözəl geyinib, necə yaraşır və s. Üslub da, yazar da belə bir nəsnədir. Üslubu gözə soxmağa çalışanda, “mən nə qəşəng yeni söz dedim” iddiasında olanda istədiyinə nail olmursan. Amma bunları bir kənara atanda, yazmaq istədiyinin arxasınca gedəndə bundan mətn udur.

***- Yeri gəlmişkən, bizdə belə bir təəssürat var ki, gənc yazar tanınmaq üçün, əsasən, ya özündən əvvəlki nəsli inkar edir, ya da pornoqrafik elementlərə əl atır...***

- Bunlar da həmin üslubçuluğa, kənara çıxmalara daxildir. Bir yaşlı yazıçının yaradıcılığında bunu tapmazsınız. Yeni yazanlara, gəncliyə aiddir - hökmən özünü göstərmək istəyir, “mənə qədər bunu belə edən olmayıb” sindromu gülüncdür. Bir də çox qəribə başqa məqam var - gənc yazıçılar (artıq çoxu 40-ı haqlayıb) elə bilirlər ki, Azərbaycan dialektoloji lüğətini oxumaqla daha yaxşı yazıçı olmaq olar. Yaxud kənddə tövlədə gördüyü inəyin inək olana qədər 10 adını bilirsə, hə, bax bu, yazıçıdı, həyatı yaxşı bilir. Gülməlidir. Bütün bunları görkəmli yazıçılarımız son dərəcə təbii şəkildə əks etdiriblər. Daha deməyiblər, bu hələ çəpişdi, sonra keçi olacaq. Həyatın o məqamını yeri gəldikcə ifadə ediblər. Bunlar isə əvvəlcə göstərmək istəyirlər ki, mən bunu bilirəm, sonra ona uyğun təsvir tapırlar. Yaşlı nəsildə - Süleyman Rəhimovda, Əli Vəliyevdə, İlyas Əfəndiyevdə, Əbülhəsəndə əvvəl təsvir idi, sonra təsvirin içində olanlar. Bəzi gənclərdə bu, əksinədir.

## “Özümü artıq tənqidçi kimi hiss etmirəm”

***- Son illər içinizi titrədən hansısa roman, povest, hekayə, şeir oxumusunuz?***

- Desəm, “yox” - düz olmaz, desəm, “hə” - o da düz olmaz. Məni xüsusi sarsıdan bir şey oxumamışam. Bəlkə də bu, yaşla bağlıdır. Məndən bundan artığını gözləməyə də dəyməz. Mən daha çox təkrar oxumağı sevirəm. Servantesi, Tolstoyu, Bulqakovu, Markesi, Borxesi, Ekonu... Demirəm, gündə oxuyuram, amma onların yaradıcılığı ilə tanış olduğum üçün kitabı istənilən yerdən açıb oxumaq mənə hələ də ləzzət edir. Bir də sonuncu dəfə Nəriman Əbdülrəhmanlının “Yolçu” romanını oxudum, mənə həqiqətən təsir etdi. Bu əsər Azərbaycan ədəbiyyatında “ağır” roman anlayışına yüzdə yüz uyğun gəlir və o “janrın” bütün tələblərinə cavab verir.

***- Müsahibələrinizin birində “Azərbaycanın istedadsız şairləri” adlı yazı yazacağınızı demişdiniz. O yazı nə vaxt yazılacaq?***

- Hər bir yazını yazmaq üçün gərək daxilən sənə güc gəlsin, ilham mənbəyin olsun. Həmin o istedadsız yazılar məndə heç bir həvəs yaratmadı. Gücü istedadlı yazılar, “mənim yazıçım” olan yazıçılar, “mənim şairim” olan şairlər yaradır. Bəlkə də istedadsız sözünü kəskin demişəm. Sonradan fikirləşdim ki, “mənim şairim” olmayan şairlər haqqında belə kəskin şəkildə yazmaq bəlkə də doğru deyil. Çünki onların da öz oxucusu ola bilər. Bir də ki, mən özümü artıq tənqidçi kimi hiss etmirəm.

***- “Mənim şairim” dediyiniz şairlər kimlərdir?***

- Füzuli, Hüseyn Cavid, Musa Yaqub, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Vaqif Bayatlı, Aqşin, Qismət... Amma o istedadsızlara qayıdaq. Belə deməklə, sadəcə, göstərmək istəmişdim ki, bizə bu cür də yazılar lazımdır. Başqa prinsipim də var idi - Azərbaycan ədəbiyyatının tarixini misralar, şeirlər üstündə qurmaq, şəxslər üstündə yox. Məsələn, “bir axşam taksidən düşdüm payıza” - çox böyük mənəvi lövhədir. Yaxud “Yavrum, quzum adın nədir? Gülbahar”. Və ya “Tutuşdu qəm oduna şad gördügün könlüm, Müqəyyəd oldu ol azad gördügün könlüm” və ya “Bir təsəllidir sənə ol söz ki, derlər, var sübh”. Deməli, Füzuli üçün azad könüllər məqamı və məskəni var imiş ki, onu yada salır. Yazılar bu misralar üzərində qurulanda mənəvi aləmimiz daha aydın görünə bilər.

Başqa sözlə desək, Azərbaycan ədəbiyyat tarixini öyrənmək bugünkü azərbaycanlını daxilən bir qədər də möhkəm etmək məqsədi güdür. Bugünkü Azərbaycan dünənki Azərbaycandan təkcə şəhərləri, kəndləri, bağları, xiyabanları, hündürmərtəbəli binaları ilə fərqlənmir. Öz insanı ilə fərqlənir. Azərbaycan insanı artıq dəyişib. Ədəbiyyatın öyrənilməsi, mədəniyyətin təbliğ edilməsi həmin o insanın daha güclü formalaşmasına gətirib çıxarmalıdır. O güclü insan hansı prinsiplərlə yaşayır? Ən vacib prinsip odur ki, o, artıq şəxsi mənafeyini ictimai mənafedən irəli dürtmür. Bəli, məhz “dürtmür” sözünü işlədirəm, çünki bizdə çox zaman belə olub. O, ictimai mənafeyi üstün sayır, vətən, dövlət, bayraq, himn, prezident onun üçün adi sözlər deyil. O, bu sözlər uğrunda ölümə də gedə bilər. Bax, bu cür Azərbaycan formalaşır. Bu, çox vacib məsələdir. Ümumiləşdirsək, bizdə Niçsenin “səhrası” artıq böyümədən qalıb.

***- Qarabağ savaşı və onun fəsadları mövzu kimi ədəbiyyatımızda əsas istiqamətə çevrilməli olsa da, təəssüf ki, kəmiyyət və keyfiyyət sarıdan ciddi kasadlıq yaşanır. Azərbaycan ədəbiyyatında “Qarabağ nəfəsi” niyə duyulmur?***

- Bu fikirdəyəm ki, Qarabağ uğrunda mübarizə Qarabağ haqqında danışmaqla məhdudlaşmamalıdır. Biz bu gün Azərbaycanda nədən, hansı məsələdən danışırıqsa, Qarabağ uğrunda mübarizənin tərkib hissəsi olmalıdır. Bu gün iki gəncin sevgisindən roman yazılırsa, bu da Qarabağ uğrunda müharibə deməkdir. O sevgini elə göstərə bilərik ki, “Əli və Nino”da olan kimi, bütün dünya desin ki, belə böyük sevgisi olan xalq heç vaxt haqsız iş tutmaz, ədalətsiz yola düşməz. Bu da Qarabağ uğrunda mübarizədir. Yoxsa biz elə bilməyək ki, mübarizə yalnız əlinə silah almaqdır. Bu mübarizənin bir yolu da Azərbaycanı güclü etməkdir ki, bunu cənab Prezident İlham Əliyev hər addımında edir. Elə sonuncu Soçi və Aşqabad görüşlərini xatırlamaq kifayətdir.

## “Müxtəlif Kamal Abdullalar yoxdur”

***- Sizcə, Xalq yazıçısı ilə yazıçının fərqi nədir?***

- Yazıçının özü üçün heç bir fərqi yoxdu yəqin ki... Kənardakılar üçün hansısa fərqlər ola bilər.

***- İki ay əvvəl də belə düşünürdünüz?***

- Vallah, heç vaxt düşünmürdüm ki, nə zamansa Xalq yazıçısı ola bilərəm, olmalıyam və bunun uğrunda mübarizə aparmalıyam. Sadəcə olaraq yazırdım. 20 ölkədə kitabım çıxıb. Fransa, Türkiyə, İtaliya və Rusiyada eyni romanım hətta iki dəfə çap olunub. İtaliyada kitabım çıxandan sonra Umberto Eko məni evinə dəvət edib. Yəni müəyyən zümrələrin diqqətini cəlb etmişəm. Demirəm, bu, mənim nailiyyətimdir. Bu, bəlkə də daha çox kitabın həsr olunduğu mövzunun müvəffəqiyyətidir. “Kitabi-Dədə Qorqud”a, Şah İsmayıl və onun dövrünə, Azərbaycan həqiqətləri və sirlərinin qələmə alındığı məqamlara olan maraqdır. Mənim ən böyük nailiyyətim, məncə, o mövzuları doğru-düzgün seçməyimdir.

***- 20 ildir ən müxtəlif ali dövlət məqamlarındasınız. Məmur Kamal Abdullayev Xalq yazıçısı Kamal Abdullanı bir qədər arxa plana keçirdimi?***

- Yox, elə düşünmürəm. Bunlar bir-birini tamamladılar. Biri o birinə mane olmadı. Çünki məmur kimi çalışanda da deyilənlərə görə maraqlı kitab yaza bildim - “Kitabi-Dədə Qoruqudun poetikası”. Yaxud “Yarımçıq əlyazma” ilk rektor olduğum zaman yazıldı. Eləcə də sonrakı kitablar. Soruşa bilərlər: həm rektorluq etdin, həm də necə oldu ki, roman yazdın? Rektorluğum da, romanlarım da məncə, göz qabağındadır. Və müxtəlif Kamal Abdullalar yoxdur. Siz deyən istiqamətlərin hamısını özündə ehtiva edən bir Kamal Abdulla var.

***- “Kitabi-Dədə Qorqud”la bağlı çoxillik araşdırmalarınızın nəticəsi olaraq olduqca maraqlı, hələ də müzakirə və mübahisə mövzusu olan bədii əsər də ərsəyə gətirdiniz - “Yarımçıq əlyazma”. Kamal Abdullanın nəzərindəki, təqdimatındakı Dədə Qorqudla ənənəviləşmiş Dədə Qorqud obrazı arasında hansı fərqlər var?***

- Mənim üçün “Yarımçıq əlyazma”nın ən böyük uğuru bilirsiz özünü nədə göstərdi? Çox adam dedi ki, sənin romanını oxuyandan sonra getdik “Dədə Qorqud” dastanını təzədən və ya birinci dəfə oxuduq. Bu, sevindirici haldır. Nəyə görə oxudular? Ona görə ki, görək Kamal Abdulla süjet xəttini, personajları nə qədər dəyişib, kimləri önə çıxarıb, kimlər arxa planda qalıb - bu fərqi öyrənmək üçün. Bunun özü də mənim üçün qiymətli məqamdır. Çünki bizim özümüzü yaxşı tanımağımız üçün “Dədə Qorqud”u hər rakursdan öyrənməyimizə böyük ehtiyac var. Eləcə də bu baxımdan dövlət tərəfindən “Dədə Qorqud”la bağlı keçirilən bütün tədbirlərin maarifləndirici, mənəvi və siyasi əhəmiyyəti var.

Yenə deyirəm, “Dədə Qorqud” kimi dastanların dünyaya təqdim edilməsinin müxtəlif yolları bir nöqtəyə gətirib çıxarır - dünya insanı deyir ki, bu dastanı yaradan xalq ədalətsiz, bihesab iş tutmaz. Məqsəd budur. Gərək, dünya desin ki, bu ölkənin insanları doğru yoldadırlar. Biz bunu onsuz da bilirdik. Azərbaycan multikulturalizm modeli bu gün dünyada qəbul edilən modeldir. Avropanın 20 ölkəsində universitetlərdə Azərbaycan multikulturalizmi fənni tədris olunur. Məqsəd nədir? Göstərək ki, xalqımız, cəmiyyətimiz, dövlətimiz əsrlər boyu bu ideallara sadiq qalıb, onları bu günə qədər gətirib çıxarıb. Göstərək ki, Azərbaycanda dinlər, dillər, millətlər arasında münaqişə yoxdur, heç vaxt da olmayıb. Bizdə ən müxtəlif dinlərin nümayəndələri bir-birilə qardaş kimi dolanıblar. Bu, “Dədə Qorqud” dastanında, Nizami, Füzuli, Nəsimi yaradıcılığında da özünü göstərir. Yaxın və uzaq qonşularımızın hamısına ədəbiyyatımızın tarixi boyu məhəbbət izhar olunur. Bunu təbliğ etməklə onu göstərmək istəyirik ki, Azərbaycan xalqı budur, onun yaşadığı və yaşatdığı ideallar bundan ibarətdir. Qoy dünya insanı Azərbaycana multikulturalizm prizmasından baxıb onun həqiqətlərini qəbul etsin. Bunun özü də eyni zamanda Qarabağ uğrunda mübarizədir.

## “Bu, ölüm qarşısında qorxumdur” və yaxud “var sübh!”

***- Hansısa əsərinizdə öz prototipiniz var?***

- Yox. Digər tərəfdən bütün yazılar da əslində müxtəlif personajlar, prototiplərdir. Ola bilər Basat da mənəm, Təpəgöz də... Dədə Qorqud da mənəm, Şir Şəmsəddin də... Bəzən məni tənqid edirdilər ki, Kamal Abdullanın çoban obrazı alim kimi danışır. “Unutmağa kimsə yox” romanında Bəhram kişi uzaq qalaktikalardan, paralel dünyalardan söhbət açır. Bəli, belədir. Çünki o da mənəm. Flober deyirdi ki, Madam Bovari - bu mənəm. O dövr getdi ki, çobanı çoban dilində danışdırmaq üçün kəndə gedib 3 ay çobanlıq etməliydin. Edirdilər də... Gərək biləsən ki, inəyi necə sağırlar, qoyunu necə xınalayırlar. Bu mənə həmişə qəribə gəlib. Amma digər tərəfdən etiraf edirəm ki, bunlar da etnoqrafiya üçün son dərəcə maraqlı və bəlkə də yaşamağa haqqı olan məqamlardır.

***- Yaradıcılığınızda mistikaya meyil çoxdu. Hələ mətbəə qoxusu duyulan əsərinizdə - “Sirlərin sərgüzəşti”ndə də adından göründüyü kimi, mistika var. Bu, fərdi üslubdur, yoxsa bir janr?***

- Bir dəfə pyesimin tamaşasına dostlarımı dəvət etmişdim. Məktəb yoldaşlarımdan biri soruşdu, “yenə ölülərdən yazmısan?” Janr deməzdim. Əslində, bu, bilirsiz nədir? Təntənəli desəm, bu, mənim insanın ölməzliyinə olan inamımdır. Təntənəsiz, səmimi şəkildə desəm, ölüm qarşısında qorxumdur. İstəmirsən öləsən, ümid edirsən ki, nə cürsə yaşayacaqsan, həyat davam edəcək. Bu ikisini birləşdirəndə nə alınırsa, odur.

***- Son olaraq onu da soruşum. Sizcə, şah əsərinizi yazmısınız?***

- Bir dəfə mənə sual verdilər ki, Azərbaycan ədəbiyyatının 3 ən gözəl romanı hansıdır? Dedim “Yarımçıq əlyazma”, “Sehrbazlar dərəsi”, “Unutmağa kimsə yox”. İndi dördüncünü soruşsalar, deyərəm “Sirlərin sərgüzəşti” (gülür) ...

***- Varmı planınızda belə əsər yazmaq?***

- Füzulinin beyti ilə cavab vermək istəyirəm:

*Ey Füzuli, şami-qəm əncamına yoxdur ümid,*
*Bir təsəllidir sənə ol söz ki, derlər, var sübh...*

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

---

# Gənc bəstəkarların kamera konserti

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında “Nəsimi ili” çərçivəsində Azərbaycan Bəstəkarlar İttifaqının 85 illiyinə həsr olunmuş kamera konserti olmuşdur.

Konsertdə Prezident Administrasiyası Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, Azərbaycan Yazıçılar Birliyinin nümayəndəsi, şair-tərcüməçi Hikmət Babullaoğlu və digər rəsmi şəxslər iştirak etmişlər.

Konserti giriş sözü ilə açan Azərbaycan Bəstəkarlar İttifaqının baş məsləhətçisi Sevda Hüseynova Azərbaycan Prezidentinin sərəncamına əsasən, ittifaqın dəstəyi ilə respublikamızda və xarici ölkələrdə “Nəsimi ili” ilə əlaqədar keçirilən mədəni-kütləvi tədbirlər barədə məlumat verdi. Bildirildi ki, “Nəsimi ili” tədbirləri sırasından olan bu kamera konsertdə gənc bəstəkarların Nəsiminin sözlərinə bəstələdiyi mahnılar ilk dəfə səsləndiriləcək.

Orijinallığı ilə seçilən konsertdə beynəlxalq müsabiqələr laureatları Fatimə Nəsirli, Əsmər Kərimli, Ümid Mustafazadə, Üzeyir Mahmudbəyli, İlqar Hacıyev, Kamran Quliyev, Orxan Hüseynov, Məmməd Rəcəbli, Rza Abbasquliyev, Nicat Salmanov və Əli Əmişovun ifa etdikləri musiqi sədaları altında qiraətçi Səid Qəninin, Əməkdar artist Ramil Qasımovun və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, xanəndə Mütəllim Dəmirovun çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

***“Azərbaycan”***

---

# Bakıda incəsənət əsərlərinin növbəti auksionu keçiriləcək

Mədəniyyət Nazirliyi, “Auction Baku” MMC şirkəti və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə noyabrın 7-də “Hilton Baku” hotelində incəsənət əsərlərinin növbəti auksionu keçiriləcək.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, auksion respublikada mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini inkişaf etdirmək, alıcı və satıcılar arasında əlaqə qurmaq, art biznes sahəsində rəqabət qabiliyyətini gücləndirmək məqsədilə reallaşacaq. Hərrac incəsənət əsərlərinin, əntiq əşyaların, qədimi mebellərin, musiqi alətlərinin, saatların, zərgərlik məmulatlarının, xalça və xalçaçılıq məmulatlarının, nadir şərabların ixtisaslaşdırılmış auksionunu nəzərdə tutur. Alıcılar hərraca çıxarılan 11 lot üzrə mübarizə aparacaqlar. Akif Əsgərov “Atlar”, Mahmud Rüstəmov “Qadın müxtəlif əhvalda” silsiləsindən “Kompozisiya”, Fərəh Əliyeva “Santa 1919-cu il”, “Kraliça”, Pərviz Hüseynov və İrina Qundorina “Kraliça Viktoriya”, Vüqar Muradov “Gülüş”, “Payızda-Yaz”, Namiq Məmmədov “Mələklərin səhər yeməyi”, “Bolluq”, Vüqar Əli “Karvan” və İlham Mirzəyevin “Antik Büst-Qızılı Fonda” əsəri hərraca çıxarılacaq. Auksionda iştirak etmək üçün dəvətnamə tələb olunur. Media nümayəndələri üçün giriş sərbəstdir.

Xatırladaq ki, bu ilin may ayının 21-də “Auction Baku” MMC tərəfindən Azərbaycanda ilk dəfə keçirilən auksion ictimaiyyətdə böyük maraq yaradaraq Azərbaycan iqtisadiyyatında yaradıcı sənayenin rolu və gələcək inkişaf perspektivləri nəzərə alınmaqla yenidən keçirilməsi qərara alınıb.

---

# Xalq yazıçısı Elçinin seçilmiş məqalə və esseləri kitab şəklində çap olunub

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Xalq yazıçısı Elçinin “Daha dərin qatlara (seçilmiş məqalə və esselər)” adlı kitabının nəşri başa çatdırılıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görkəmli yazıçı, dramaturq Elçinin oxucularına təqdim etdiyi “Daha dərin qatlara” adlı kitabında XX əsrin 70-ci illərindən bu günə kimi dövri mətbuatda dərc olunan seçilmiş məqalə və esselər toplanıb. “Tənqid və ədəbi proses”, “Problemlər”, “Ədəbiyyatımız və folklorumuz”, “Qələm sahibləri”, “Teatr və tamaşalar” bölmələrində təqdim olunan məqalə və esselərin hər biri oxucunu düşündürür.

“Təhsil” nəşriyyatında yüksək poliqrafik keyfiyyətlə çap edilən kitab Mədəniyyət Nazirliyinin tabeçiliyində olan kütləvi kitabxanalara paylanılacaq.

---

# Atəşkəs 21 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# INVITATION FOR BIDS

**The Republic of Azerbaijan**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No: 8286-Az**

**Contract Title:** NCB/Procurement of Serosurvey equipment and reagents for zonal vet labs

**Reference No.** (as per Procurement Plan): **NCB/A3/G-5a**

1. The Ministry of Agriculture of Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds toward payments under the Contract for **Procurement of Serosurvey equipment and reagents for zonal vet laboratories.**
2. Agency for Agro Credit and Development under the Ministry of Agriculture/ Agricultural Competitiveness Improvement Project now invites sealed bids from eligible bidders for purchasing Serosurvey equipment and reagents for vet labs.

Post-qualification requirements:

(a) If Bidder is Manufacturer:
(i) Financial Capability

**The Bidder shall furnish documentary evidence that it is in a sound financial status:**

i. The Bidder shall furnish documentary evidence that it meets the following financial requirement(s): The average annual turnover of the Bidder for the last three years (2016 - 2017 - 2018) for supply of goods must exceed AZN 300 000 (three hundred thousand manat) or equivalent. The averages of cash and cash equivalents at the beginning and end of year are positive in the last three years (2016 - 2017 - 2018). Zero (0) tax and social security liabilities.

(ii) Experience and Technical Capacity

- The Bidder must have similar supply experience minimum one year.
- The Bidder must have completed at least 1 successful contract involving the supply of similar goods with the contract amount not less than AZN 220 000 (Two hundred twenty thousandmanats) within the lastfour years (2016 - 2017 - 2018 -2019).

**Note:** For Joint Ventures, listed requirements would apply to partners of the Joint Venture cumulatively. In addition, all members of the Joint Venture should have experience in required technical area and each member of the Joint Venture should fulfill at least 25 % of required turnover.

(iii) Documentary Evidence

- All goods must fit for purpose - i.e. conform to required technical specifications specified in Section VII. Schedule of Requirements, Technical Specifications.

(b) If Bidder is not Manufacturer:

If a Bidder is not a Manufacturer, but is offering the Goods as a Supplier, the Supplier shall demonstrate ability of the above set qualifications under (i), (ii), (iii) and additionally submit the required Manufacturer's Authorization Form (Section IV, Bidding Forms) issued by Manufacturer for proposed items.

3. Bidding will be conducted through the National Competitive Bidding procedures as specified in the World Bank's Guidelines: Procurement of Goods, Works and Non-Consulting Services under IBRD Loans and IDA Credits &Grants by World Bank Borrowers January 2011 Revised July 2014 ("Procurement Guidelines") and is open to all eligible bidders as defined in the Procurement Guidelines. In addition, please refer to paragraphs 1.6 and 1.7 setting forth the World Bank's policy on conflict of interest.
4. Interested eligible bidders may obtain further information from Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project,

Mr. AnarAzimov, a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com, n.isgandarova@akia.gov.az, nargiz.acip@gmail.com; and inspect the bidding documents during office hours from 09.00 to 18.00 at the address given below.

5. A complete set of bidding documents in English may be purchased by interested eligible bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 200 AZN or equivalent. The method of payment will be bank transfer or direct deposit to the specified account number. The document will be sent by surface mail or courier for local delivery.

Beneficiary: Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project
Beneficiary's Tax ID: 1700428481
Beneficiary's bank: International Bank of Azerbaijan Open Joint Stock Company, Premier Customer Services Branch
S.W.I.F.T: IBAZAZ2X
Bank Code: 805250
Bank's Tax Code: 9900001881
Corr. acc: AZ03NABZ01350100000000002944 with Central Bank of Azerbaijan (for AZN)
Corr. acc: 36083186 with Citibank N.A, New York, NY; SWIFT code: CITIUS33XX (for USD)
Beneficiary's Account in AZN: AZ03IBAZ38090069449330335120
Beneficiary's Account in USD: AZ73IBAZ38190078409330335120

6. Bids must be delivered to the address below on or before **15:00 local time, November 18, 2019.** Electronic bidding will not be permitted. Late bids will be rejected. Bids will be publicly opened in the presence of the bidders' designated representatives and anyone who choose to attend at the address below on **15:15 local time, November 18, 2019.**
7. All bids must be accompanied by a **Bid Securing Declaration** in a form required in BDs.
8. The address(es) referred to above is(are):

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**For submission of bids: 3rd floor**
**For opening of bids: 3rd floor, conference room**
**Attn: Mr. AnarAzimov**
**Project Director**
**25E, Nobel Avenue, Baku White City Business Center AZ1025, Baku, Azerbaijan**
**Tel: (+99412) 5250117/3015**
**Email: a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com, n.isgandarova@akia.gov.az; nargiz.acip@gmail.com;**
Web site: www.agrocredit.gov.az

# INVITATION FOR BIDS

**The Republic of Azerbaijan**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No: 8286-Az**

**Contract Title:** Procurement of Serosurvey equipment and reagents for zonal vet labs

**Reference No.** (as per Procurement Plan): **ICB/A3/G-5b**

1. The Ministry of Agriculture of Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds toward payments under the Contract for**ICB/Procurement of Serosurvey equipment and reagents for zonal vet laboratories.**
2. Agency for Agro Credit and Development under the Ministry of Agriculture/ Agricultural Competitiveness Improvement Project now invites sealed bids from eligible bidders for purchasing Serosurvey equipment and reagents for vet labs.

Post-qualification requirements:

(a) If Bidder is Manufacturer:
(i) Financial Capability

**The Bidder shall furnish documentary evidence that it is in a sound financial status:**

i. The Bidder shall furnish documentary evidence that it meets the following financial requirement(s): The average annual turnover of the Bidder for the last three years (2016 - 2017 - 2018) for supply of goods must exceed USD 180 000 (one hundred eighty thousands United States Dollars) or equivalent. The averages of cash and cash equivalents at the beginning and end of year are positive in the last three years (2016 - 2017 - 2018).Zero (0) tax and social security liabilities.

(ii) Experience and Technical Capacity

- The Bidder must have similar supply experience minimum one year.
- The Bidder must have completed at least 1 successful contract involving the supply of similar goods with the contract amount not less than USD140 000 (One hundredfortythousand USD) within the lastfour years (2016 - 2017 - 2018 - 2019).

**Note:** For Joint Ventures, listed requirements would apply to partners of the Joint Venture cumulatively. In addition, all members of the Joint Venture should have experience in required technical area and each member of the Joint Venture should fulfill at least 25 % of required turnover.

(iii) Documentary Evidence

- All goods must fit for purpose - i.e. conform to required technical specifications specified in Section VII. Schedule of Requirements, Technical Specifications.

(b) If Bidder is not Manufacturer:

If a Bidder is not a Manufacturer, but is offering the Goods as a Supplier, the Supplier shall demonstrate ability of the above set qualifications under (i), (ii), (iii) and additionally submit the required Manufacturer's Authorization Form (Section IV, Bidding Forms) issued by Manufacturer for proposed items.

3. Bidding will be conducted through the International Competitive Bidding procedures as specified in the World Bank's Guidelines: Procurement of Goods, Works, and Non-Consulting Services under IBRD Loans and IDA Credits & Grants January 2011 Revised July 2014 ("Procurement Guidelines"), and is open to all eligible bidders as defined in the Procurement Guidelines. In addition, please refer to paragraphs 1.6 and 1.7 setting forth the World Bank's policy on conflict of interest.
4. Interested eligible bidders may obtain further information from Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project,

Mr. Anar Azimov, a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com, n.isgandarova@akia.gov.az, nargiz.acip@gmail.com; and inspect the bidding documents during office hours from 09.00 to 18.00 at the address given below.

5. A complete set of bidding documents in English may be purchased by interested eligible bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 120USD or equivalent. The method of payment will be bank transfer or direct deposit to the specified account number. The document will be sent by surface mail or courier for local delivery.

Beneficiary: Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project
Beneficiary's Tax ID: 1700428481
Beneficiary's bank: International Bank of Azerbaijan Open Joint Stock Company, Premier Customer Services Branch
S.W.I.F.T: IBAZAZ2X
Bank Code: 805250
Bank's Tax Code: 9900001881
Corr. acc: AZ03NABZ01350100000000002944 with Central Bank of Azerbaijan (for AZN)
Corr. acc: 36083186 with Citibank N.A, New York, NY; SWIFT code: CITIUS33XX (for USD)
Beneficiary's Account in AZN: AZ03IBAZ38090069449330335120
Beneficiary's Account in USD: AZ73IBAZ38190078409330335120

6. Bids must be delivered to the address below on or before **15:00 local time, November 29, 2019.** Electronic bidding will not be permitted. Late bids will be rejected. Bids will be publicly opened in the presence of the bidders' designated representatives and anyone who choose to attend at the address below on **15:15 local time, November 29, 2019.**
7. All bids must be accompanied by a Bid Security of: **3 500 USD (Three thousand and five hundred USD). No any other type of guarantee is acceptable.**
8. The address(es) referred to above is(are):

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**For submission of bids: 3rd floor**
**For opening of bids: 3rd floor, conference room**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**25E, Nobel Avenue, Baku White City Business Center AZ1025, Baku, Azerbaijan**
**Tel: (+99412) 5250117/3015**
**Email: a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com, n.isgandarova@akia.gov.az; nargiz.acip@gmail.com;**
Web site: www.agrocredit.gov.az

# Bakıda müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv əsasda idarə edilməsinə dair beynəlxalq regional seminar işə başlayıb

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Bakıda keçirdiyi "Müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv əsasda idarə edilməsi: əsas prinsiplər və beynəlxalq təcrübə" mövzusunda beynəlxalq regional seminar işə başlayıb.

AZƏRTAC xəbər verir ki, böyük maraqla qarşılanan bu beynəlxalq tədbirdə Polşa, Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan və digər ölkələrdən xarici qonaqlar iştirak edir. Həmçinin ÜƏMT, CISAC, Avrasiya İqtisadi Komissiyası, "Sony-Music" kimi beynəlxalq təşkilatlar geniş təmsil olunur. Tədbirdə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov beynəlxalq regional seminarın mövzusunun aktuallığından danışıb.



Diqqətə çatdırıb ki, texnologiyaların təsiri altında dinamik şəkildə dəyişən dünya, meydana çıxan qlobal çağırışlar milli dövlətlərin qarşısında davamlı inkişaf yollarını axtarmaq vəzifələri qoyur. Müstəqil inkişaf yolu olan Azərbaycan bu gün ölkə rəhbərliyinin təşəbbüsü ilə başlamış və müsbət inkişaf üçün bütün pozitiv imkanları optimallaşdırmağa yönələn islahatların yeni mərhələsindən keçir. İctimai tələblərə adekvat islahatlar cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Azərbaycan "Doing Business-2019" reytinqinə görə 190 ölkə arasında 25-ci yerdə, o cümlədən "biznesin başlaması" göstəricisi üzrə 9-cu, "kiçik investorların maraqlarının qorunması" üzrə 2-ci, "vergilərin ödənilməsi" üzrə 28-ci yerdədir. "Doing Business-2020" hesabatında Azərbaycan yüksək nəticə ilə 34-cü yeri tutaraq, hətta "kreditlərin əlçatanlığı" göstəricisinə əsasən birincidir və islahatçı 20 ölkə sırasına daxil edilib.

Dünya İqtisadi Forumunun "Qlobal rəqabətqabiliyyətlilik indeksi-2019" hesabatında Azərbaycan 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutur və 12 indikatordan 8-i üzrə irəliləyib. Bununla da ölkənin inamlı innovasiyalı inkişafı təsdiqlənir. Belə ki, Azərbaycan qanunvericiliyin effektivliyi subindeksinə görə 13-cü, rəqəmli biznes modellərinə hüquqi çərçivənin uyğunlaşması üzrə 23-cü, hökumətin dəyişikliklərə olan reaksiyası üzrə 5-ci və hökumətin gələcəyə yönəlmiş fəaliyyətinə uzaqgörənliyinə görə 10-cu yerləri tutur.

Kamran İmanov bildirib ki, son rəqabətqabiliyyətlilik indeksinə əsasən, Azərbaycan "əqli mülkiyyətin qorunması" göstəricisi üzrə 141 ölkə arasında 30-cu yerdə qərarlaşıb. Burada diqqəti cəlb edən odur ki, 2015-2016-cı illərdən, yeni islahatların yeni mərhələsindən başlayaraq, bu göstərici ardıcıl olaraq yaxşılaşır. 2015-ci ildə 92-ci yerdən 2016-2017-ci illərdə - 71-ci, 2017-2018-ci illərdə 37-ci, sonra 36-cı və nəhayət, 2019-cu ildə 30-cu yerdə qərarlaşıb. Buna paralel olaraq, patent sifarişlərində də artım görünür.

Beynəlxalq regional seminarda çıxış edən ÜƏMT-nin Müəllif Hüquqlarının İdarəetmə Departamentinin direktoru Benua Müller aktual mövzuya həsr olunan tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib, burada iştirakından məmnunluğunu ifadə edib. Diqqətə çatdırıb ki, sürətlə dəyişən dünyada müəlliflik hüquqları ilə məşğul olanların və maraqlı tərəflərin müvafiq sahədə vacib olan faktları və strategiyanı araşdırmaları, göstərilən səyləri qiymətləndirmələri çox vacib məsələlərdir. Bir sıra hallar mövcuddur ki, fərdi şəkildə əqli mülkiyyət hüquqlarının idarə edilməsi praktik baxımdan qeyri-mümkündür. Bu kimi problemlərin, habelə qanunvericilik mexanizmləri və onların tətbiqində çətinliklərin, əqli mülkiyyətlə bağlı qanunvericiliyin prioritetlərində öncül məsələnin müəyyənləşdirilməsi ilə bağlı müzakirələr aparılması, fikir və təcrübə mübadiləsi baxımından Bakıda təşkil edilən beynəlxalq regional seminar böyük əhəmiyyət daşıyır.

ÜƏMT-nin Keçid və inkişaf etmiş ölkələr departamentinin Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələri bölməsinin müdiri İlya Qribkov biliklərə əsaslanan iqtisadiyyatda əqli mülkiyyət, eləcə də müəllif hüquqlarının qorunmasının vacibliyini qeyd edib, aparılacaq müzakirələrin problemlərin həlli yollarının müəyyənləşdirilməsinə kömək edəcəyinə əminliyini bildirib.

Tədbirdə "ÜƏMT-nin müəllif hüquqları və əlaqəli hüquqlar üzrə müqavilələrinin qısa icmalı. Audiovizual ifalara dair Pekin Müqaviləsi: həyata keçirilmənin mümkün şərtləri və variantları; milli həllərin müqayisəli təhlili", "Regionda müəllif hüquqları və əlaqəli hüquqların kollektiv idarə olunması üçün hüquqi baza və perspektivlər", "Regionda müəllif hüquqları və əlaqəli hüquqların kollektiv idarə olunması: praktik çağırışlar və imkanlar" mövzularında məruzələr dinlənilir və müzakirələr aparılır.

Beynəlxalq regional seminar oktyabrın 30-da davam edəcək.

## Beynəlxalq aləm

### Britaniya parlamenti növbədənkənar seçkilərin əleyhinə səs verdi



Britaniya parlamenti Baş Nazir Boris Consonun bu ilin dekabrında növbədənkənar parlament seçkiləri keçirmək təklifini rədd etmişdir. Bu barədə DPA informasiya agentliyi xəbər verir.

Məlumata görə, təklifin lehinə 299 səs verilmişdir. Növbədənkənar seçkilərin keçirilməsi haqqında qərarın qəbulu üçün azı 434 deputatın dəstəyi lazım idi.

Bu səsvermə Consonun parlament vasitəsilə növbədənkənar seçkilər haqqında qanun qəbul etmək üçün üçüncü cəhdidir.

Srağagün Baş Nazir Avropa İttifaqının Brexiti 2020-ci il yanvarın 31-dək təxirə salınması barədə qərarı ilə razılaşmışdır.

### Fransada məscidə hücum



Fransanın Bayonne şəhərində ifrat sağçı "Milli birlik" (keçmiş "Milli cəbhə") partiyasının üzvü məscidə hücum etmişdir. O, məscidə "Molotov kokteyli" atmış, atəş açıb iki nəfəri yaralamışdır. Bu barədə yerli polis məlumat vermişdir.

"Röyter" agentliyinin xəbərinə görə, hadisə yerindən avtomobildə qaçmağa cəhd edən cinayətkar saxlanmışdır. Onun 84 yaşı var. Əvvəllər hərbçi olmuşdur.

Yaralananlar da yaşlı kişilərdir. Onların 80-ə yaxın yaşı var.

Bu hücumun terror aktı kimi qiymətləndirilməsi barədə hələ ki məlumat yoxdur.



### Kərbəla qana boyandı

İraqın Kərbəla şəhərində etiraz aksiyaları zamanı azı 13 nəfər həlak olmuş, 865 nəfər yaralanmışdır. Polis etirazçılara atəş açmışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Hökumətin xəbərdarlığına məhəl qoymayan məktəblilər və tələbələr iqtisadiyyatın dağılmasına və kütləvi korrupsiyaya etiraz edən nümayişçilərə qoşulmuşlar.

Oktyabr ayında azı 250 nəfər həlak olmuşdur. Səngiməyən kütləvi etirazlar fonunda hökumət paytaxt Bağdadda komendant saatı elan etmişdir. Bu fərmandan sonra nüfuzlu din xadimi Müqtəda Sədr ölkədə növbədənkənar seçkilər keçirməyə çağırmışdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 29 avqust 2019-cu il tarixdə dərc edilmiş elanla əlaqədar bildiririk ki, 02 oktyabr 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə 225413 - "Digər alışlar və xidmətlər" maddəsi üzrə Dövlət Məşğulluq Xidmətinin loqotipinin və brend kitabçanın dizayn tərtibatı xidmətinin satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "CINEMA ART" MMC elan olunmuş və 23 oktyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsi tərəfindən 2019-cu il 10 oktyabr tarixində "Azərbaycan" qəzetində "Pensiya, sosial sığorta və sosial müavinət məsələləri ilə bağlı bütün instansiyalarda məhkəmə işləri" üzrə elan edilmiş açıq tenderdə iddiaçıların tenderin müddətinin uzadılması haqqında müraciətinə əsasən tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 18.11.2019-cu il saat 16:00-a kimi, tender təklifinin təqdim edilməsinin son tarixi və vaxtı 27.11.2019-cu il saat 16:00-a kimi və zərflərin açılış tarixi və vaxtı 27.11.2019-cu il saat 16:00-a kimi uzadılmışdır.

***Tender komissiyası***

# Həmyerlimiz beynəlxalq müsabiqədə ilin ən yaxşı ifaçısı seçilib



Azərbaycanın Əməkdar artisti İlham Nəzərov Fransada keçirilən dünya vokal ifaçıları arasında ilin ən yaxşı ifaçısı seçilərək müasir Azərbaycan vokal ifaçılıq məktəbinin ən parlaq nümayəndələrindən biri kimi adını Azərbaycan musiqi mədəniyyəti tarixinə yazdırmışdır.

İ.Nəzərov geniş spektrə malik yaradıcı sənətkardır. O, respublikanın ilk və yeganə kontratenor səs tembrinə malik ifaçısı, barokko musiqisinin Azərbaycanda təbliğatçısı, eyni zamanda yeni savadlı vokal ifaçılarının yetişməsində müəllim, elmi fəaliyyətlə məşğul olan musiqiçi kimi də tanınmaqdadır.

Müğənni yaradıcılıq fəaliyyətinin 20 ili ərzində dünyanın müxtəlif ölkələrinin səhnələrində oynadığı tamaşalarda, çoxlu sayda mötəbər beynəlxalq tədbirlərdə və onlarla nüfuzlu beynəlxalq müsabiqələrdə çıxışı ilə ilklərə imza atmışdır. Azərbaycan Respublikasının Əməkdar artisti İlham Nəzərov bu yaxınlarda Fransanın paytaxtı Parisdə keçirilən beynəlxalq müsabiqədə F.Şubertin "Qu quşunun nəğməsi" vokal silsiləsinin ifasına görə "Ən yaxşı F.Şubert təfsirçisi" adına layiq görülmüşdür. Belə ki, müsabiqədə bir çox ölkələrdən, o cümlədən Almaniya, Belçika, Norveç, Fransa, İtaliya, İspaniya və digər ölkələrdən qatılan onlarla iştirakçı arasında birinci olmaq İ.Nəzərovun vokal ifaçılıq sənətində yüksək peşəkarlığının göstəricisidir. Belə bir möhtəşəm beynəlxalq səviyyəli müsabiqədə Azərbaycanın adını yüksəltmək musiqi mədəniyyəti tariximizdə əlamətdar hadisədir.

Qeyd edək ki, F.Şubertin "Qu quşunun nəğməsi" silsiləsi bəstəkarın son əsərlərindən sayılır. Məcmuə 14 müxtəlif məzmunlu, bir-birindən fərqlənən təzadlı, dərin fəlsəfi mənalı nömrələrdən ibarətdir. Məcmuə öz-özlüyündə təfsir baxımından ən mürəkkəb əsərlərdəndir. Beş oktava həcmində geniş səs diapazonuna malik İ.Nəzərov əsəri mükəmməl peşəkarlıqla ifa etməsi ilə Azərbaycanı yüksək səviyyədə təmsil etmişdir.

İfaçı əldə etdiyi qalibiyyət ilə bağlı olaraq 2020-ci ilin avqust ayında Paris şəhərində iki konsert vermək imkanı əldə etmişdir. Həmçinin müğənninin ifası Fransada da lentə alınacaqdır.

***"Azərbaycan"***

---

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun aparatına və yerli orqanlarına inventarların satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqavilənı yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına və yerli orqanlarına inventarların satın alınması

**İştirak haqqı 150,00 (bir yüz əlli) manat**

**VÖEN: (DSMF) 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142319**
**Büdcə səviyyəsinin kodu : - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19.11.2019-cu il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28.11.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **28.11.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

---

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC Bakı şəhərində yerləşən poçt şöbələrinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi layihəsi üzrə

### *tender elan edir*

Tender 6 LOT-da keçirilir.

| | |
|---|---|
| LOT 1 | 10 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması |
| LOT 2 | 96 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması |
| LOT 3 | 118 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması |
| LOT 4 | 123 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması |
| LOT 5 | 149 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması |
| LOT 6 | 154 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi işlərinin satın alınması |

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

LOT 1 50 manat
LOT 2 50 manat
LOT 3 50 manat
LOT 4 50 manat
LOT 5 50 manat
LOT 6 50 manat

məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istina olmaqla) 20 noyabr 2019-cu il saat 17:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 29 noyabr 2019-cu il saat 17:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təklflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 02 dekabr 2019-cu il saat 12:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Quliyev Zülfiqar - Tender Komissiyasının üzvü (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 01.11.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün korreksiyalı elektron dispetçer saatların" satın alınması üzrə iddiaçıların sayı 3-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

---

# "Azərlotereya" ASC lotereya həvəskarlarını sevindirməkdə davam edir

**"Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin əsas prioritet məsələlərindən biri lotereya həvəskarlarını daim iri-li-xırdalı uduşlarla sevindirmək, əhalinin maddi rifahını artırmaq məqsədi daşıyır.**

Cəmiyyətdə 2019-cu ilin 9 ayı ərzində "Yeni Binqo", "Klassik loto", "4+4", "5/36" və "6/40" tirajlı lotereyalar, "Uğurlu Rəqəm 11", "Uğurlu Rəqəm 12", "Uğurlu Rəqəm 13", "Uğurlu Rəqəm 14", "Qoşa Şans 4", "Super 5+", "Sehrli Meyvə", "Sehrli Meyvə 2", "Şans++", "Şans++2", "Qoşa Şans 5", "Şahmat", "777" ani lotereyaları və "Binqo+8", "Bahar Sevincləri" bayram lotereyalarının keçirilməsi davam etdirilmişdir.

Bu lotereyalarda minlərlə insanı sevindirən və ümumi məbləği 3 433 859 manat (5000 manat və yuxarı) olan uduşlar qazanılmışdır. Bunlardan: **"5/36" tirajlı lotereyası** üzrə 427 800 manat məbləğində 4 ədəd CekPot, **"6/40" tirajlı lotereyası** üzrə 473 760 manat məbləğində 6 ədəd CekPot, **"Yeni Binqo" tirajlı lotereyası** üzrə 91 000 manat məbləğində 1 ədəd "Super Binqo" pul mükafatı, 60 000 manat məbləğində 1 ədəd "Fortuna" pul mükafatı, 50 000 manat məbləğində 1 ədəd "Binqo" pul mükafatı, 75 000 manat məbləğində 1 ədəd "MeqaPot" pul mükafatı, 74 299 manat məbləğində 6 ədəd "CekPot" pul mükafatı, **"Klassik loto" tirajlı lotereyası** üzrə 10 000 manat məbləğində 38 ədəd pul mükafatı, 125 000 manat 2 ədəd "MeqaPot" pul mükafatıdır.

Ani lotereya oyunlarında **"Uğurlu Rəqəm 11"** ani lotereyasında 1 ədəd 5 000 manat məbləğində, **"Uğurlu Rəqəm 12"** ani lotereyasında 10 ədəd 5 000 manat məbləğində, 6 ədəd 10 000 manat məbləğində, 3 ədəd 20 000 manat və 1 ədəd 50 000 manat məbləğində, **"Uğurlu Rəqəm 13"** ani lotereyasında 25 ədəd 5 000 manat məbləğində, 14 ədəd 10 000 manat məbləğində, 10 ədəd 20 000 manat məbləğində, 4 ədəd 50 000 manat məbləğində, **"Uğurlu Rəqəm 14"** ani lotereyasında 2 ədəd 5 000 manat məbləğində, 1 ədəd 10 000 manat məbləğində, 1 ədəd 20 000 manat məbləğində, **"Qoşa Şans 4"** ani lotereyasında 5 ədəd 5 000 manat məbləğində, 5 ədəd 10 000 manat məbləğində, 3 ədəd 25 000 manat məbləğində, 2 ədəd 66 000 manat məbləğində, **"Qoşa Şans 5"** ani lotereyasında 1 ədəd 5 000 manat məbləğində, 1 ədəd 10 000 manat məbləğində, **"Super 5+"** ani lotereyasında 6 ədəd 5 000 manat məbləğində, 3 ədəd 10 000 manat məbləğində, 1 ədəd 30 000 manat, **"Sehrli Meyvə"** ani lotereyasında 1 ədəd 5 000 manat məbləğində, 1 ədəd 20 000 manat məbləğində, **"Sehrli Meyvə 2"** ani lotereyasında 4 ədəd 5 000 manat məbləğində, 2 ədəd 25 000 manat məbləğində, **"Şans++"** ani lotereyasında 1 ədəd 10 000 manat məbləğində. **"Şans++2"** ani lotereyasında 5 ədəd 5 000 manat məbləğində, 1 ədəd 10 000 manat məbləğində, 1 ədəd 25 000 manat məbləğində, **"Şahmat"** ani lotereyasında 2 ədəd 5 000 manat məbləğində, 2 ədəd 25 000 manat məbləğində, **"777"** ani lotereyasında 3 ədəd 5 000 manat məbləğində, 1 ədəd 10 000 manat məbləğində uduşlar lotereya həvəskarlarına ödənilmişdir.

Bayram lotereyalarında **"Binqo+8"** tirajlı lotereyasında 1 ədəd 20 000 manat məbləğində, 1 ədəd 10 000 manat və 5 ədəd 5 000 manat məbləğində, **"Bahar Sevincləri"** tirajlı lotereyasında 1 ədəd 20 000 manat məbləğində, 1 ədəd 10 000 manat və 5 ədəd 5 000 manat məbləğində pul mükafatları şanslı lotereya iştirakçıları tərəfindən qazanılmışdır.

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin təşkil etdiyi lotereya biletlərini satış məntəqələrimizdən yaşı 18 olan istənilən hər kəs əldə edərək, lotereya oyunlarının şanslı iştirakçısı və qalib olmaq şansını qazana bilərsiniz!

Sizə uğurlar arzu edirik.

***Sizin "Azərlotereya"***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan informasiya sistemlərinin proqram platformalarının dəstəklənməsi və modernizasiya xidmətlərinin satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 27 avqust 2019-cu il tarixli sayında elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tenderin nəticələrinə görə *Elektron sənəd dövriyyəsi sisteminin, Elektron imza üzrə sertifikatlaşma sisteminin proqram platformalarının dəstəklənməsi və Elektron imza üzrə sertifikatlaşma sisteminin modernizasiyası* xidmətləri üzrə tenderin qalibi "Sinam" şirkəti, *Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin və Maliyyə savadlığı portalının proqram platformalarının dəstəklənməsi* xidmətləri üzrə tenderin qalibi "GTSolutions" şirkəti elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

---

# Sumqayıtda "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib



Sumqayıtda fəaliyyət göstərən Heydər Əliyev Mərkəzində şəhər gəncləri arasında interaktiv formatda "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.

Tədbirdə bildirilib ki, ölkəmizdə gənclərə geniş meydan verilib. Onlara göstərilən diqqət və qayğı çox yüksəkdir.

Bu gün respublikamızda gənclər siyasəti uğurla davam etdirilir. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramından irəli gələn vəzifələri icra etmək, gənclərin intellektual səviyyəsini və dünyagörüşünü genişləndirmək, zehni inkişafını stimullaşdırmaq və asudə vaxtlarının səmərəliliyini təşkil etmək yarışın əsas məqsədidir.

Turnirdə şəhərin müxtəlif sahələrini təmsil edən 14-29 yaşarası gənclərdən ibarət komandalar öz bilik və bacarıqlarını sınayıb. Gərgin və maraqlı keçən bilik yarışının sonunda Qızıl Aypara Cəmiyyəti Sumqayıt şəhər bölməsinin "Aypara", "ASAN xidmət" mərkəzinin "Mübariz", Gənclər Evinin "Gənclik" komandaları birinci, ikinci və üçüncü yerləri bölüşüblər.

Qaliblərə medal və fəxri fərmanlar təqdim edilib.

***Akif ƏLİYEV, "Azərbaycan"***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Zərifə Quliyevaya bacısı

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Qubadlı rayon prokurorunun böyük köməkçisi

**FUAD ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi "Modern inkişaf və ailə" İctimai Birliyinin sədri Zərifə Quliyevaya bacısı

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Saatlı Rayon Məhkəməsinin sədri İxtiyar Abuşov Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərova anası

**SUSANNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kürdəmir Rayon Məhkəməsinin kollektivi Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərova anası

**SUSANNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8967
Sifariş 3616
Qiyməti 40 qəpik